Xalqın qəzeti!

# Xalq qəzeti

№ 99 (30503) 14 may 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az




Səhifə ⇨ 8

## Azərbaycan dünya birliyinin nüfuzlu dövləti, xoşməramlı ölkəsidir

### Prezident İlham Əliyev Millətlər Birliyi təşkilatının baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendi qəbul edib.**

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Patrisia Skotlend səfərinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümünə təsadüf etməsini xüsusi vurğulayaraq, Ulu öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət etdiyini bildirdi, dahi şəxsiyyətin və onun ömür-gün yoldaşının Azərbaycanın inkişafına verdiyi töhfələri xatırlatdı.

Patrisia Skotlend ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyini məmnunluqla qeyd etdi, bunun özünü xüsusilə COVID-19 pandemiyası zamanı göstərdiyini vurğuladı. O, Uqandada Hərəkatın Zirvə toplantısında iştirak etdiyini deyərək orada bütün dövlətlər tərəfindən Azərbaycanın sədrliyinin çox yüksək qiymətləndirildiyini və bunun praktiki nəticələrinin olduğunu qeyd etdi. Qonaq Azərbaycanın Hərəkata uğurlu sədrliyi ilə bağlı bir daha təbriklərini çatdırdı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Patrisia Skotlendin ölkəmizdən yaxşı təəssüratlarla ayrılacağına ümidvar olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində səmərəli fəaliyyət göstərdiyini, Hərəkatın təsisatlanması istiqamətində mühüm addımlar atdığını vurğuladı. Pandemiya dövründə COVID-19 ilə bağlı BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması təşəbbüsünün ölkəmizə məxsus olduğunu xatırladan Prezident İlham Əliyev Azərbaycanın 80-dən çox ölkəyə, xüsusilə Qoşulmama Hərəkatına üzv dövlətlərə yardım göstərdiyini, vaksin millətçiliyinə qarşı BMT təsisatlarında müvafiq qətnamələrin qəbul olunmasını təmin etdiyini, bununla mübarizə istiqamətində beynəlxalq aləmdə səyləri birləşdirmək üçün fəaliyyətini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın Qoşulmama Hərəkatına üçillik sədrliyi üzv dövlətlərin dəstəyi ilə daha bir il müddətinə uzadılmışdır.

Azərbaycan Prezidenti ölkəmizin Hərəkata sədrliyi dövründə qazandığı beynəlxalq təcrübədən iqlim dəyişikliyi ilə bağlı istifadə edəcəyini, bu məsələdə də səylərini davam etdirəcəyini dedi, iqlim dəyişikliyindən əziyyət çəkən ölkələrə ədalətli yanaşmanı nümayiş etdirəcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, dünya ictimaiyyətinin yekdil dəstəyi ilə ölkəmizin COP29-a sədrlik etməsi və bu tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul olunub. Azərbaycanın Qoşulmama Hərəkatının "sədrlik üçlüyündə" yer aldığını deyən Prezident İlham Əliyev COP çərçivəsində də "üçlük" mexanizminin yaradıldığını qeyd edərək, bu istiqamətdə Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın birlikdə fəaliyyət göstərdiklərini, müxtəlif regionlarda yerləşmələrinə baxmayaraq, COP gündəliyinin birgə irəli aparılması üçün çalışdıqlarını vurğuladı.

Azərbaycan Prezidenti ölkəmizin Millətlər Birliyi təşkilatı ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi.

Qonaq Millətlər Birliyi təşkilatının üzvlərinin 33-nün məhz kiçik ada dövlətləri olduğunu deyərək, həmin ölkələrin iqlim dəyişikliklərinin mənfi fəsadlarına ən çox məruz qalan, hətta iqlim dəyişikliklərinə görə mövcudluqları sual altında olan dövlətlər olduğunu vurğuladı.

Azərbaycanın kiçik ada dövlətlərinin və az inkişaf etmiş ölkələrin problemlərinə COP29 sədrliyi çərçivəsində xüsusi diqqət yetirəcəyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmiz onların problemlərinin həllinə öz töhfəsini verməyə hazırdır. Bu xüsusda Azərbaycan ilə Millətlər Birliyi təşkilatı arasında birgə əməkdaşlıq layihələri və COP29 çərçivəsində kiçik ada dövlətlərinə həsr edilmiş xüsusi iclasın keçirilməsi məsələləri müzakirə olundu.

***AZƏRTAC***




Səhifə ⇨ 3

## Adı vətəndaş qurumu, özü vətəndaş qənimi

Lemkin Institute for Genocide Prevention

Səhifə ⇨ 4

## Mirzoyanın "Almatı sevgisi", yaxud sülhə doğru "nazlı gediş"



Səhifə ⇨ 3

## Ermənistanda "impiçment" sövdələşməsi

### Kilsə və "Daşnaksütyun" kimlərin təlimatı ilə hərəkətə keçiblər?

**2020-ci ilin payızında baş verən 44 günlük müharibədə Ermənistanın sarsıdıcı məğlubiyyətə uğramasından, baş nazirin gizlicə təslimolma aktı imzalamasından nəticə çıxarmayan revanşist qüvvələr yenidən aktivləşiblər. Olduqca rəngarəng olan bu düşərgədə az qala bütün siyasi qüvvələrin təmsilçiləri var. Onlar, necə deyərlər, alabəzəkdirlər. Digər vaxtlarda bir-biri ilə yola getməyən bu qüvvələr indi Paşinyanı devirmək istəyində birləşiblər. Bu düşərgənin "xaç atası" rolunda ölkənin ikinci prezidenti Robert Koçaryan çıxış edir.**

Onun əsas əlaltısı 2008-ci ildə hakimiyyəti təhvil verdiyi, ondan çox dinc insanın həlak olması yolu ilə vəzifəyə yiyələnmiş Serj Sarkisyandır. İndi də hakimiyyətə gəlmək üçün Koçaryan–Sarkisyan tandemi Azərbaycanla Ermənistan arasında pozitiv məcrada keçən delimitasiya prosesindən bəhanə kimi yararlanır, prosesdə erməni kilsəsinin simalarından və resurslarından aktiv istifadə edir. Aydın görünür ki, etiraz prosesinin gizli təşkilatçısı R.Koçaryan bu dəfə hakimiyyətə gəlmək üçün daha ciddi hazırlaşıb, əvvəlki uğursuzluqlarından nəticə çıxarıb, etiraz texnologiyalarını fərqli ssenari üzrə qurub. Bunu Paşinyanın 2018-ci ilin mayında kütləvi etirazlar fonunda hakimiyyətə gəlməsi ilə hazırkı aksiyalar arasında oxşar məqamlardan, o cümlədən paytaxta piyada yürüşdən, itaətsizlik aksiyalarından da görmək olar.



Faktiki olaraq, apostol kilsəsi və "Daşnaksütyun" partiyası bu gün Ermənistanda müharibə tərəfdarları kimi çıxış edirlər. Onların dəstəkçisi isə Fransa prezidenti Emmanuel Makron, ABŞ konqresmeni Nensi Pelosi, senator Robert Menendes kimi şəxslərdir. Onlara ümumi rəhbərliyi isə ABŞ və Fransadakı erməni diasporu-lobbisi həyata keçirir. Elə 52 yaşlı Baqrat Qalstanyanın bioqrafiyası da şübhəli məqamlarla doludur. Məlum olub ki, o, Böyük Britaniyada Lids və Kanadanın Monreal şəhərlərində dini təhsil alıb. Eyni zamanda, on il ərzində Kanadadakı erməni kilsəsinə başçılıq edib. Hayastanın media qurumları onun Kanada vətəndaşlığı olduğunu yazıb. Daha sonra Qalstanyan özü bu faktı etiraf etmək məcburiyyətində qalıb.

**(ardı 4-cü səhifədə)**




Səhifə ⇨ 7

## Şimali Makedoniya Avropadan üz çevirə bilər



Səhifə ⇨ 11

## Şuşanın dağları toylu-bayramlı



Səhifə ⇨ 10

## Güləşçilərimizin Parisə yolu açıqdır




Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Tuvalunun general-qubernatorunu, Tonqanın Baş nazirini və Baham Adaları Birliyinin xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Tuvalunun general-qubernatoru Falani Tofinqanı, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolaunu və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul edib.**

**Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:** Xoş gəlmisiniz! Sizi görmək xoşdur. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzu edirəm. Burada qonaqlarımızın iqlimlə bağlı mühüm məsələləri müzakirə etmələrini görmək çox xoşdur. Sizi konfransa dəvət etmək istəyirəm. Əlbəttə, ümidvaram ki, siz konfransın açılış mərasimində olacaqsınız. Beləliklə, bu, ikitərəfli gündəliyimizi, bizim birlikdə necə çalışa biləcəyimizi və bu ciddi iqlim çağırışı ilə bağlı sizi necə dəstəkləyə biləcəyimizi müzakirə etmək üçün yaxşı fürsətdir. Xoş gəlmisiniz. Bilirəm ki, Azərbaycanda geniş proqramınız və çoxlu görüşləriniz var. Əminəm ki, yaxşı təəssüratlarla geri dönəcəksiniz.

**Tuvalunun general-qubernatoru Falani Tofinqa:** Əlbəttə. Sabahınız xeyir, cənab Prezident! Mən Tuvalunu təmsil edirəm. Tuvalı hökumətinə göndərdiyiniz dəvəti böyük minnətdarlıq hissi ilə qəbul edirəm. Buna görə də gözəl paytaxtınız Bakı şəhərinə səfərim hökumətlərimiz – Azərbaycan hökuməti və mənim hökumətim arasında olan güclü diplomatik əlaqələrin aydın təzahürüdür.

Cənab Prezident, icazə verin, aşağıdakı təklifləri Sizin ali diqqətinizə çatdırım. Bunlar əsasən üç geniş sahəni əhatə edir. COP29 üçün bir nömrəli əsas prioritetlər. İtki və Zərər Fondunun fəaliyyətə başlaması. İqlim maliyyələşməsi üzrə yeni kollektiv kəmiyyət hədəfinin müəyyən edilməsinin yekunlaşdırılması. İqlim dəyişikliyinin qarşısının alınması tədbirlərinin görülməsi, təmiz enerjiyə ədalətli və bərabər keçid prosesinin qəbul edilməsi.

Zati-aliləri, ölkələrimiz arasında diplomatik əlaqələri gücləndirmək üçün Tuvaluda adaptasiya layihəsinin maliyyələşdirilməsi məsələsi bizə layihənin nəticələrini COP29-da nümayiş etdirmək imkanını verəcək. Ölkələrimiz - gözəl Azərbaycan və kiçik ada ölkəsi olan Tuvalu arasında viza rejiminin aradan qaldırılmasını Sizdən xahiş edirik. Azərbaycan hökumətindən tələbələrə təqaüdlərin ayrılmasını xahiş edirik ki, bizim istedadlı gənclərimiz Sizin yüksək səviyyəli ali məktəblərinizə və digər texniki kolleclərə qəbul ola bilsinlər. Sonuncu məsələ, cənab Prezident, mən COP29-dan öncə Tuvaluya səfər etmək üçün bizim hökumətimiz adından dəvəti Zati-aliləri cənab Prezidentə çatdırıram. Vaxtınızı almayaraq, cənab Prezident, bir daha Sizə çox sağ olun demək istəyirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm! Çox sağ olun!

Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolau: Cənab Prezident, Tuvalunun general-qubernatorunun Sizə ünvanladığı minnətdarlığa qoşulmaq istəyirəm. Həmçinin təkcə mənə yox, eyni zamanda, nümayəndə heyətimizə Azərbaycan hökuməti tərəfindən göstərilən qonaqpərvərliyə görə səmimi təşəkkürümü bildirirəm. Çox sağ olun, cənab Prezident.

COP29 təkcə qlobal miqyasda yox, konkret olaraq bizim kimi kiçik ada ölkələri üçün mühüm məsələlərin həllində dönüş nöqtəsi olmalıdır. Cənab Prezident, yəqin bilirsiniz, iqlim dəyişikliyi sərhədlərə baxmır, kiçik və ya böyük ölkə olmasına baxmır. O, sadəcə, hamımıza təsir edir. Bu vəzifəni üzərinə götürdüyü üçün Azərbaycanı və xüsusilə Sizi təqdir edirəm. Bu, asan bir vəzifə olmayacaqdır. Biz burada olduğumuz müddətdə Sizin liderliyinizə və COP29 sədrliyinizə dəstək olacağıq ki, bu COP-un daha da faydalı olması üçün yolları müəyyən edə bilək.

Mən çoxlu COP-larda iştirak etmişəm və bəzən biz özümüzə sual edirik, xüsusilə okeanın o tayında olduğumuzu nəzərə alaraq buraya gəlməyə dəyərmi? Buna görə Azərbaycanda keçiriləcək COP-da nələr etmək olar müzakirəsinə qoşulmaq üçün kiçik ada ölkələrinin cəlb edilməsi bizdə nəinki xoş təəccüb hissi doğurdu, biz bu addımı yüksək qiymətləndiririk. Hesab edirəm ki, təsir altında olan ölkələrin nöqteyi-nəzərindən biz nə kimi məsələləri nəzərdən keçirməliyik, burada - Azərbaycanda keçirilən COP-da prioritetlərin nədən ibarət olacağını müzakirə etmək irəliyə doğru atılan mühüm bir addımdır. Biz COP29 üçün sərgilədiyiniz cəsarət və sadiqliyi bir daha təqdir edirik və birlikdə işləyərək hətta biz – kiçik ada ölkələri COP29-u uğura çevirə biləcəyimizə və bu beynəlxalq foruma olan inamı bərpa edə biləcəyimizə inanırıq. Çünki biz iqlim dəyişikliyi haqda uzun müddətdir ki, danışırıq. Məsələn, itki və zərərlər məsələsi Tuvalu tərəfindən on ildən çoxdur ki, qaldırılır və yalnız keçən il biz müəyyən razılığa gələ bildik. Biz müəyyən bir prosesin olduğunu bilirik, lakin bu, çox uzun zaman aparır, xüsusilə bizim hamımızın iqlim dəyişikliyinin təsirini hiss etdiyimiz bir dövrdə. İnsanlar bu problem haqda danışır, lakin bəzilərimiz iqlim dəyişikliyinin təsirini hiss edir. Məsələn, dəniz səviyyəsinin qalxması. Biz dəniz səviyyəsinin qalxmasına görə sahilyanı ərazilərin geriyə çəkilməsini nəzərdən keçirirdik. Bundan əlavə, bizdə təbii fəlakətlər baş verir. Bizdə çox güclü siklonlar olur və məsələn, Tahada vulkan püskürməsi və sunami baş vermişdir. Bu hadisələr sahilyanı sərhədlərin geriyə çəkilməsini zəruri etdi və sahil mühafizəsi nöqteyi-nəzərindən bütün məsələni mürəkkəbləşdirdi.

Bu səbəbdən biz hökumətinizin COP29-dakı sədrliyi üçün sahillərin mühafizəsinə dair müzakirə mövzuları təklif etmək istərdik. Baham adalarının əvəzindən danışmaq istəməzdim, ancaq biz və hər halda Tuvalu da 99 faiz okeanla əhatə olunmuşuq, ərazimiz olduqca kiçikdir. Biz bəzən özümüzü böyük okean dövləti adlandırırıq. Ancaq reallıq ondan ibarətdir ki, bizim resursumuz və torpaq sahəmiz yoxdur, olan kiçik sahəni qorumaq üçün əlimizdən gələni etməliyik. Hər il Sakit Okean hövzəsi liderlərinin toplantısı təşkil olunur, 18 dövlətin rəhbərləri Liderlərin Forumu adlanan tədbirə toplaşırlar. Buraya Avstraliya və Yeni Zelandiya da daxildir. Bu il liderlər Tonqaya səfər edəcəklər.

Zati-aliləri, zənnimcə, bu, Sizin və ya COP-un prezidentliyinin nümayəndəsinin iştirakı üçün münasib məkan olacaqdır ki, orada COP29-a baxış təqdim edilsin və Sakit okean hövzəsinin kiçik ada dövlətlərinin dəstəyi əldə olunsun. Kiçik ada dövlətləri üçün əhəmiyyətli məsələlərin Sizinlə və nümayəndələrinizlə müzakirə edilməsi imkanına görə şadıq. Bəli, bizim Kiçik Ada Dövlətləri Alyansımız var və biz BMT çərçivəsində gündəliyin təşviqində yardımçı ola bilərik. Biz Sizi və ya nümayəndənizi avqust ayının sonuncu həftəsi Tonqada görməkdən şad olardıq. Orada Sakit okean hövzəsi liderləri ilə birbaşa müzakirə aparmaq imkanı olacaqdır. Biz Azərbaycanda keçiriləcək COP29-a qədər bir neçə ay ərzində Sizinlə əməkdaşlıq etməkdən məmnun olardıq. Cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox sağ olun!

**Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audley:** Apellyasiya Məhkəməsi hakimləri arasında belə bir ifadə var – onlar özləri qərarı qəbul etmək istəməyəndə deyirlər: mən bütün deyilənlərlə razıyam. Mən də sözlərimə bununla başlamaq istərdim. Hər ölkəyə gəldikdə vəziyyət eynidir. İlk növbədə, mən hazırda digər bir dövlət səfəri ilə bağlı burada ola bilməyən hörmətli Baş nazirimiz adından üzrxahlıq diləmək istərdim. Ancaq mənə tapşırılıb ki, bu işi öz üzərinizə götürdüyünüz üçün Sizə təşəkkürümüzü ifadə edim. Baş nazirimiz payızda COP29-da iştirak etmək üçün buraya səfər edəcəkdir.

Mən İtki və Zərər Fonduna maliyyə vəsaitlərinin cəlb olunması məsələsini xüsusilə qeyd etmək istərdim. Məni hava limanında qarşılayan həmkarlara söylədim ki, müvafiq maliyyə vəsaiti cəlb edildikdə Baham adaları sahillərinə yaxınlıqda ölkənizin adını daşıyacaq dalğaqıranın inşası belə mümkündür. Xəzər dənizində gördüyüm dalğaqıran məndə dərin təəssürat yaratdı. Mən uşaqlıqda Xəzər dənizi haqqında eşitmişdim. İndi isə onu şəxsən görmək mənə çox xoş oldu.

Ancaq burada Baş nazirin də qeyd etdiyi kimi, ciddi məsələ tropik siklonlarıdır. Beş il öncə baş vermiş yalnız bir qasırğa nəticəsində Baham adaları ümumi daxili məhsulun 30 faizini itirib və biz hələ də onun fəsadlarını aradan qaldırırıq. İtki və Zərər Fondunun maliyyə imkanları sayəsində nəhəng dalğaqıranların inşası nəzərdə tutulub. Baham adaları, ümumilikdə, Karib hövzəsi ölkələri üçün burada ən böyük çətinlik ondan ibarətdir ki, biz yüksək gəlirli ölkələr hesab edilirik. Çoxları isə bunu nəzərə almır ki, təbii fəlakətlər baş verir, ölkəyə ciddi ziyan dəyir və daha sonra güzəştli şərtlərlə maliyyə vəsaitlərinin cəlb edilməsi məsələsində problemlər yaranır. Bu səbəbdən biz, həmçinin beynəlxalq maliyyə təsisatları çərçivəsində bununla bağlı dəyişikliklərin edilməsi üzərində çalışırıq.

Ölkənizlə ikitərəfli əsasda diplomatik münasibətlər 2017-ci ilin mayında qurulub. Hazırda təklifimiz ondan ibarətdir ki, biz bunu daha irəliyə aparaq, indiki mərhələdə qeyri-rezident səfirlər təyin edək və Xarici İşlər nazirlikləri vasitəsilə viza tələbinin aradan qaldırılmasına nail olaq. Bizim bir sıra ölkələrlə belə sazişlərimiz var. Düşünürük ki, bu, münasibətlərimizin irəliyə doğru aparılması istiqamətində məqsədəuyğun addım olar. Bir sözlə, bir daha, sadəcə, qeyd etmək istəyirəm ki, bu məsələ ciddidir. Baş nazir onu ekzistensial məsələ adlandırır. Baham torpaqlarının 80 faizi dəniz səviyyəsindən cəmi bir metr hündürlükdədir. Ən yüksək nöqtə dəniz səviyyəsindən 206 fut təşkil edir. Yəni, çox da yüksək deyil.

Ötən il Nyu-Yorkda BMT Baş Assambleyasında çıxış etdikdən sonra orada "Səyahətçilər klubu" mənə bir təqdimat göstərdi. Təqdimatda əgər biz bu problemin qarşısını almasaq, 2070-ci ildə paytaxt şəhər Nassau və adaların hansı vəziyyətdə olacağı nümayiş etdirilirdi. Adanın 30 faizi suyun altında qalacaq. 2100-cu ildə isə 70 faiz su altında qalacaq. Bu səbəbdən Baş nazir həmin məsələni bizim mövcudluğumuzla bağlayır. Ümid edirik ki, bu səfər məsələnin dərk edilməsini konkretləşdirəcək, bizə dəstək veriləcək və beləliklə, biz məsələnin həllində irəliyə doğru birgə gedə biləcəyik. Lakin qabaqlayıcı tədbirlərin görülməsi, itki və zərərlərin qarşısının alınmasının maliyyələşdirilməsi bir daha qeyd edilməlidir.

Səfərə dəvət etdiyinizə görə bir daha minnətdaram. Üzrlü hesab edin ki, Baş nazir özü gələ bilmədi. Sizinlə gələn aylar ərzində işin davam etdirilməsini səmimiyyətlə arzulayıram.

**Prezident İlham Əliyev:** Bir daha çox sağ olun. Ölkəmizə səfər etdiyinizə görə minnətdarıq. İkitərəfli gündəliyimiz və COP29 məsələləri barədə söhbət etmək üçün yaxşı fürsətdir. Bizə bu missiyanı təxminən 200-ə yaxın ölkənin yekdil qərarı ilə həvalə ediblər. Bu, Azərbaycana hörmət əlamətidir və həmçinin nəticələrə nail olacağımızın təzahürüdür. Bildiyiniz kimi, biz Qoşulmama Hərəkatına dörd il ərzində sədrlik etdik. Sədrliyə də yekdil qərarla seçildik. Sədrliyimizi Uqandaya həvalə etdiyimiz zaman biz artıq nəzərəçarpan nəticələrə aid yaxşı təcrübənin əsasını qoyduq. Təsisatın inkişafı, o cümlədən COVID-19 kimi çətin vaxtlarda ehtiyacı olan dövlətlərə dəstək, bu məsələnin mümkün qədər yüksək səviyyəyə qaldırılması onların sırasındadır. Yəni, bizim təşəbbüsümüzlə Baş Assambleyanın xüsusi sessiyası təşkil edilmişdi.

Hazırda biz COP29-a sədrlik edirik və buna praktiki nöqteyi-nəzərdən yanaşırıq. Bilirik ki, bir çox müzakirələr, söhbətlər aparılıb, lakin nəticə çox olmayıb. Bizim mövqeyimiz isə hər zaman çox praktiki və praqmatik olub. Biz nəticələrə nail olmaq istəyirik. Konfransda müzakirə olunacaq ən mühüm məsələ maliyyədir. Vəsaitlərin ayrılması üzərində fəal çalışırıq ki, həmin məsələlər həllini tapsın. Eyni zamanda, anlayırıq ki, iqlim dəyişmələri bəzi ölkələr üçün problemdir, lakin digərləri üçün mövcudluqla bağlı olan məsələdir. Biz bunu aydın şəkildə anlayırıq. Düşünürük ki, kiçik ada dövlətlərinə yardım bizim üçün mənəvi borcdur. Sizi əmin edə bilərik ki, kiçik ada dövlətləri məsələsi, onlara dəstəyin verilməsi, onların müdafiəsi müzakirələrin təməlində dayanacaq. COP29-un sədri kimi, biz bunu diqqət mərkəzində saxlayacağıq. Həmçinin digər kiçik ada dövlətləri ilə məsləhətləşərək, COP29 zamanı yüksək səviyyəli nümayəndələrin görüşünün təşkil olunmasını təklif edirik. Eyni zamanda, kiçik ada dövlətlərinə dəstəyin verilməsi məqsədilə praktiki töhfəni və maliyyələşmə addımlarını bəzi tərəfdaşlarla artıq müzakirə edirik.

Artıq dediyim kimi, hər kəs, o cümlədən Azərbaycan iqlim dəyişmələrindən əziyyət çəkir. Sizdə su artıqdır. Bizdə isə su azdır. Bizdə quraqlıq, sizdə isə dənizin ərazinizə daxil olması var. Bununla belə, hər bir ölkə problemlə üzləşir, lakin sizin üçün bu, mövcudluqla bağlıdır. Qlobal istiləşmədə böyük payı olan ölkələr isə bundan əziyyət çəkən ölkələrin maraqlarına və gündəlik tələblərinə göz yummalı deyillər. Qlobal istiləşməyə siz səbəb olmamısınız, biz səbəb olmamışıq. Bizim payımız, ola bilsin, mində birdir. Biz axı əziyyət çəkirik. Siz daha çox əziyyət çəkirsiniz. Mən bir daha sizi əmin edə bilərəm ki, biz təkcə sözdə deyil, o cümlədən işdə göstərəcəyik. COP29-un nəticəsi kimi Sizə maksimum gözəçarpan dəstəyin göstərilməsi üçün tərəfdaşlarımızla işləyəcəyik. Bizə gəldikdə, biz buna maliyyə töhfəsini verməyə hazırıq.

***

Sonda xatirə şəkli çəkdirildi.

***AZƏRTAC***

# "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2** Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin (bundan sonra – Reyestr) fəaliyyətinin təşkili, saxlanılması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

**3** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Reyestrin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin;

3.2. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, Reyestrin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

**4** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

4.1. Reyestri mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və təhlükəsizlik meyarları üzrə onun monitorinqini həyata keçirsin;

4.2. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birlikdə Reyestrin təhlükəsizliyinin təmin edilməsi məqsədilə digər tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 may 2024-cü il**

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

### ağır cinayətlər məhkəmələri üzrə:

**Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi**
Kərimov Arzuyar Sadıq oğlu
**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Vəliyeva Ayşən Umud qızı

### hərbi məhkəmələr üzrə:

**Füzuli Hərbi Məhkəməsi**
İsmayılov Roman İsmayıl oğlu

### inzibati məhkəmələr üzrə:

**Gəncə İnzibati Məhkəməsi**
Tağıyeva Ruhiyə Nadim qızı
**Sumqayıt İnzibati Məhkəməsi**
Axundova Aynur Oqtay qızı
**Şirvan İnzibati Məhkəməsi**
Quliyeva Rəşidə Paşa qızı

### Bakı şəhərinin rayon məhkəmələri üzrə:

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Vəliyeva Elnarə Fəxrəddin qızı
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Miriyeva Həbibə Novruz qızı
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Məmmədli Samirə Məhəmməd qızı
**Bakı şəhəri Yasamal Rayon Məhkəməsi**
Xəlil Ülkər Abdurahman qızı
Oruclu Aydan Adəm qızı
Seyidov Mirsadiq Mirsəttar oğlu

### rayon (şəhər) məhkəmələri üzrə:

**Abşeron Rayon Məhkəməsi**
Kərimova Firuzə Şahin qızı
**Beyləqan Rayon Məhkəməsi**
Cabbarlı Xatın Mahir qızı
**Bərdə Rayon Məhkəməsi**
Abdullayev Fərman Firidun oğlu
Abdullayev Ziya Yaşar oğlu
**Biləsuvar Rayon Məhkəməsi**
Rəsulova Mədinə Camal qızı
**Cəlilabad Rayon Məhkəməsi**
Vəliyev Osman Akif oğlu
**Füzuli Rayon Məhkəməsi**
Məmmədli Səkinəxanım Naib qızı
**İmişli Rayon Məhkəməsi**
Mahmud Orxan Əlövsət oğlu
**Kürdəmir Rayon Məhkəməsi**
Mehdiyev Rahid Baxşəli oğlu
**Qax Rayon Məhkəməsi**
Kərimov Taleh Etibar oğlu
**Qazax Rayon Məhkəməsi**
Mansırov Elçin Faxrəddin oğlu
**Lerik Rayon Məhkəməsi**
Zeynalov Yusif Səmədağa oğlu
**Masallı Rayon Məhkəməsi**
Abbasova Ellara Həsən qızı
Abdullayev Coşqun Şamil oğlu
**Saatlı Rayon Məhkəməsi**
Qasımov Vüqar İnqilab oğlu.

**2** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Tural Mehman oğlu Ələkbərov Goranboy Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Xocalı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

Elnur Heydər oğlu Hüseynov Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

Emin Ağamusa oğlu Abdullayev Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

Rahim Təşəkkül oğlu Həsənov Quba Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

Qabil Neymət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

Günay Rövşən qızı Həşimova Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

Qamət Mehman oğlu Əbilov Bərdə Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Sevinc Məhəmməd qızı Quliyeva Abşeron Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Mübariz İsfəndiyar oğlu Məmmədov Astara Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Göygöl Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Ülvi Oktay oğlu Qənbərov İmişli Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Qəbələ Rayon Məhkəməsinin hakimi təyin edilsin;

Qalib Hidayət oğlu Paşayev Cəlilabad Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Yevlax Rayon Məhkəməsinin hakimi təyin edilsin.

**3** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 may 2024-cü il**

# Əli Əsədovun Məhəmməd Caludla görüşü

***Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 13-də Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Caludla görüşüb.***



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycanda idmanın inkişafı məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə söhbət açılıb. İdmançıların yüksək dövlət qayğısı ilə əhatə olunduğu, ölkəmizdə müasir idman infrastrukturunun yaradıldığı bildirilib. Qeyd edilib ki, bütün bunlar idmançılarımızın mötəbər beynəlxalq turnirlərdə uğur qazanmalarına zəmin yaradıb.

Azərbaycanda digər idman növləri ilə yanaşı, ağırlıqqaldırmanın da inkişafına və kütləviləşməsinə dövlət tərəfindən böyük diqqətin yetirildiyi vurğulanıb.

Görüşdə Azərbaycan Ağırlıqqaldırma Federasiyası ilə Beynəlxalq Ağırlıqqaldırma Federasiyası arasında mövcud əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

***XQ***

# Gücün sərt leksikonu və Prezidentin Şuşa mesajları

**Prezident İlham Əliyevin Şuşaya qayıdan ilk sakinlərə mənzillərinin açarlarının təqdim edilməsi mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlərə bir neçə cəhətdən diqqət yetirmək lazımdır. Əlbəttə, ilk növbədə, həmin fikirlərin dərin mesaj yükünün olduğuynu vurğulamalıyıq. Yazımız da əsasən bu barədədir. Ancaq digər əlaqəli məqamlara da toxunacağıq.**



***

Bəli, XX yüzillikdə ermənilərə həmişə vədlər verilib. Əslində, bu, daha əvvəlin söhbətidir. Məsələ ondadır ki, erməni amilindən istifadə 1830-cu ildən başlayıb. Yəni, ermənilərin Cənubi Qafqaza köçürülməsindən. Bunu çar Rusiyası edib. İstəyib ki, müsəlmanlar yaşayan coğrafiyada xristian bufer zonası yaratsın. Tədricən ermənilərin Osmanlı imperiyasına qarşı alət kimi istifadəsi planları da işə düşüb. Bu dəfə Qərb erməni amilindən istifadəyə girişib və dünyada hayların təşkilatlanması prosesi başlanıb. Onların "Daşnaksütyun" və "Hnçak" kimi millətçi terror təşkilatlarının formalaşdırılmasına dəstək göstərilib. Məsələ barədə Rusiyanın Van və Ərzurumdakı baş konsulu olmuş Mayevski də özünün XIX əsrin sonlarına aid olan xatirələrində söz açıb. Mayevski onu da vurğulayıb ki, "Şərq məsələsi"nin davamı kimi, "Yunan məsələsi"nə üstünlük verilməyə başlanandan sonra "Erməni məsələsi" təxirə salınmış, ancaq proses tam sıradan çıxmamışdı.

Bir müddət sahibsiz qalan ermənilərə sahiblik baxımından Qərb və Rusiya arasında rəqabət yaranıb. Hansı tərəf onlara nəyi çox vəd edəcək, məsələ böyük ölçüdə bu olub. Ona qədər isə ermənilərə Azərbaycanın İrəvan şəhəri paytaxt olmaqla, öz dövlətlərini yaratmaq imkanı tanınıb. Bu, Qərb üçün sərfəli idi. Elə Rusiya da erməni qövmünə mükafat qismində dövlətin yaranmasına etiraz etmədi. Bolşeviklərin hakimiyyətə gəlişi ilə həmin qövm üçün yeni səhifə açıldı. SSRİ-nin qurulmasından sonra sovet Azərbaycanının torpaqları hesabına Ermənistan SSR üçün, belə demək mümkünsə, ərazi hədiyyələri dövrü başlandı. Əslində, Sovetlər Birliyinin rəhbərliyi bununla vaxtilə çar Rusiyanın müsəlmanlar arasına "xristian pazı" siyasətini daha dolğun şəkildə reallaşdırdı.

Amma bu da son olmadı. Çünki ermənilərin "qlobal xidmətləri" yüksək qiymətləndirilirdi. SSRİ rəhbərliyi həmin "xidmətlərin" qarşılığını vermək istəyirdi. Azərbaycan torpaqlarında ermənilərə pay məntiqi elə bu səbəbdən gündəmə gəlmişdi. Proses 1969-cu ilin mayınadək davam etmişdi. Yalnız ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyə gəlişindən sonra torpaq hədiyyələrinə ara verilmişdi. Bunadək isə yəni 1923-cü ildə Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Deməli, daha böyük hədiyyə naminə baza formalaşdırılmışdı. Yeri gəlmişkən, Heydər Əliyevin rəhbərliyi illərində də erməni millətçiləri Qarabağın Ermənistana birləşdirilməsi istiqamətində cəhdlər göstərmişdilər. Əlbəttə, bu cəhdlərin hamısı iflasa uğramışdı.

Nəhayət, Ulu öndərin SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından sonra erməni millətçilərinin Qarabağ avantürasına start verilmişdi. Sovet rəhbərliyi bu avantüraya səssiz qalmışdısa, imperiyanın süqutundan sonra məsələ ilə bağlı Rusiya və Qərb arasında, belə demək mümkünsə, ortaq razılıq əldə edilmişdi. Təxminən belə – Qarabağ Ermənistanın olmalıdır. ATƏT-in artıq canını tapşırmış Minsk qrupu mövcud istiqamətdə durmadan çalışmışdı. Prezident İlham Əliyev məhz buna görə də Şuşa sakinləri ilə görüşündə deyir: "Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin. Bu gün də baxın, bizə qarşı, kimlər, necə deyərlər, əsas rol oynayırlar– Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa".

Lakin zaman dəyişib. Azərbaycan dövləti bütün oyunları pozub, ədaləti bərpa edib, haqsızlıqlar qarşısına sədd çəkib. Bunu öz gücü və iradəsi hesabına gerçəkləşdirib. Ona görə də dövlətimizin başçısı son dərəcə qətiyyətli şəkildə bildirir ki, Azərbaycanın iradəsindən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil və buna görə də: "Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya, onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır".

Bəli, neçə müddətdən sonra ABŞ səfirinin ilk dəfə Şuşaya ayaq basması qəribə idi. Bu, istər-istəməz sual doğururdu. Birləşmiş Ştatlar nə üçün dörd il gözləmişdi. Axı biz bilirik ki, dünyanın müxtəlif ölkələrinin ali səviyyəli diplomatlarının həm Şuşaya, həm də işğaldan azad edilmiş digər bölgələrimizə səfərləri reallaşıb. Nəinki reallaşıb, bir növ, ənənə halını alıb. Görəsən, ABŞ səfiri nəyi gözləyirdi? Hər halda, Amerikanın Azərbaycandakı ali təmsilçisi elə-belədən Şuşaya yollanmazdı. Burada bir mesaj var.

Prezident İlham Əliyev məhz belə subliminal mesajlar dilində danışmamağı, səmimi davranmağı əsas götürür. Dövlətimizin başçısının fikirləri həm də bəzi qüvvələrin səmimiyyətdən uzaqlığı barədə düşünməyə əsas verir: "Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda, hər kəs bilir ki, biz nəyə qadirik, ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz".

ABŞ səfirinin Şuşaya səfəri və ölkənin Azərbaycan – Ermənistan münasibətlərinin nizamlamasına aid yada ötən il baş verən bir sıra olaylar düşür. Bu baxımdan Dövlət Departamenti rəhbərinin köməkçisi Ceyms Obraynın Naxçıvana quru yolunun İrandan keçməsinə hiddət dolu münasibətini xatırlamalıyıq. Onun dediklərindən belə çıxmışdı ki, sözügedən yol Ermənistandan rəsmi İrəvanın istədiyi kimi keçməsə və alternativ olaraq Bakının seçdiyi İran variantı dəyərləndirilsə, o zaman Vaşinqton Azərbaycana münasibətini dəyişəcək.

Qeyd edək ki, dövlətimiz bu gün də Naxçıvana yolun Ermənistan vasitəsilə olmasının tərəfdarıdır. Ancaq bu yol "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslanmalıdır. Yəni, hansısa sərhəd və gömrük nəzarəti olmadan. Ermənistan isə belə yanaşmanı özünün suverenliyinə qəsd kimi qiymətləndirir. Beləliklə, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdən boyun qaçırır. Əslində, Obraynın və ümumən ABŞ-ın şəxsində kollektiv Qərbin də istədiyi budur – erməni varlığı üçün imtiyaz tanımaq, ona avantürizm şansı vermək. Azərbaycanın ən məlumatlı şəxsi – Prezident İlham Əliyev bu kimi niyyətlərdən xəbərdar olduğundan, sərt mesajlar səsləndirir. Daha doğrusu, mesaja mesajla cavab verir. Şuşa onsuz da bizim idi. Səfirin ora ayaq basaraq ölkəsinin bu qədim şəhərimizin bizə məxsusluğunu təsdiqləyirmiş kimi davranması mənasızdır. Cənab İlham Əliyevin təbirincə desək, bizə minnət qoymaq lazım deyil.

Bizə heç kəs heç nəyi diktə edə bilməz. İndi nə 1918-ci ildir, nə Sovetlər Birliyi dönəmidir, nə də 1991–1994-cü illər. Qarabağ danışıqları vasitəsilə bu bölgəni və digər işğal edilmiş torpaqlarımızı Ermənistana vermək üçün min cür hoqqaların çıxarıldığı zaman da geridə qalıb. Gələcəyə baxılmalıdır. Elə bir gələcəyə ki, orada Azərbaycanın daxili işlərinə müdaxilə meyli nəzərə çarpmasın. Elə bir gələcəyə ki, orada Azərbaycanın Cənubi Qafqazdakı söz sahibi mövqeyi vurğulansın. Ona görə vurğulansın ki, bu vurğulanmada ilahi ədalət payı var. Bu gün Azərbaycanın çalışdığı məhz o ədalətin tam bərpasıdır. Mövcud istiqamətdə təkcə çalışmırıq, eyni zamanda, tələb edirik. Ermənistandan sərhədin ədalətli şəkildə müəyyənləşməsinə əks çıxmamağı gözləyirik. Bəs bunun qarşılığında nə görürük?

Görürük ki, Ermənistanda müəyyən qüvvələr vurnuxurlar. Baqratlar başda olmaqla revanşist-şovinistlər ortaya düşüb saxta vətənpərvərlik "zəngulələri vururlar". Azərbaycanla delimitasiya və demarkasiya prosesini pozmağa səy göstərirlər. Yekunda onlar sülhə qarşıdırlar. Azərbaycan Prezidenti Şuşa sakinləri ilə görüşündə belələrinin cavabını verdi. Həm də belələrini ortaya salanların. Mövcud xüsusda dövlətimizin başçısının vurğuladığı bir məqam var. Əslində, ölkəmizin lideri həmin məqamı əvvəllər də dilə gətirib. O zaman Ermənistan sülhə indiki qədər yaxın görünmürdü. Məhz həmin vaxt Prezident İlham Əliyev bildirmişdi ki, sərhədləri müəyyənləşdirmək istəmirlərsə, onun haradan keçəcəyinə dövlətimiz özü qərar verəcək. Dövlətimizin başçısı eyni fikri bir qədər də qətiyyətli şəkildə yenidən gündəmə gətirir: "İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq".

***

Ümumən, Azərbaycan liderinin fikirləri Cənubi Qafqazda sülh prosesini pozmaq, erməni avantürizmini diri saxlamaq istəyənlərə demarş xətti, onların siyasi menyusunu alt-üst etməkdir. Cənab İlham Əliyev dövlətimizin mövcud istiqamətdə hər cür imkanlara sahibliyini vurğulayır. Bu vurğulama, eyni zamanda, həm Ermənistana, həm də onun havadarlarına ədalət prinsiplərinə münasibətdə əks mövqe tutmamaqla bağlı sərt xəbərdarlıqdır: "Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm".

Biz də əmin olmaq istərdik ki, Ermənistan və havadarları Prezident İlham Əliyevin Şuşa mesajlarından nəticə çıxaracaqlar. Nəzərə alaq ki, dövlətimizin başçısının mesajları dünya üçün kifayət qədər əhəmiyyətli sayılan, həssaslığı ilə seçilən Cənubi Qafqaz regionunun gələcək inkişafı baxımından son dərəcə önəmlidir. Bu önəmlilik bütün beynəlxalq güclər tərəfindən tam şəkildə dərk edilməlidir və buna hansısa alternativ yoxdur. Tarixən erməni avantürizmi üzərində Cənubi Qafqazda oynanılan oyunlara da artıq yer yoxdur və bundan sonra heç ola bilməz.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Mirzoyanın "Almatı sevgisi", yaxud sülhə doğru "nazlı gediş"

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ATƏT-in fəaliyyətdə olan sədri, Maltanın xarici işlər naziri Yan Borqla keçirdiyi mətbuat konfransında Azərbaycanla sülh prosesinin gedişinə toxunub. Onun dilə gətirdiyi fikirlərdə iki başlıca məqam var. Birincisi, 1991-ci ilin Alma-Ata Bəyannaməsini ehkamlaşdırmaq xətti. İkincisi isə bu məsələdə ATƏT-in boynuna məsuliyyət qoymaq. Birincidən başlayaq.**

A.Mirzoyan bildirib ki, Alma-Ata Bəyannaməsinin prinsipləri Azərbaycanla müzakirə olunan sülh müqaviləsində təsbit edilsə, bu, uzun müddətdir davam edən münaqişəyə son qoya və Cənubi Qafqazda sabit sülhü bərqərar edə bilər. "Mən həmkarıma Cənubi Qafqazdakı mövcud vəziyyəti, Ermənistan və Azərbaycan arasında danışıqların son mərhələsində baş verən hadisələri, o cümlədən, Almatıda (Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla görüşü – red.) aparılan danışıqların təfərrüatlarını təqdim etdim. Bu kontekstdə aprelin 19-da iki ölkənin delimitasiya və sərhəd təhlükəsizliyi komissiyaları tərəfindən təsdiq edilmiş razılaşmanı vurğuladım ki, delimitasiya prosesinin siyasi əsası 1991-ci il Alma-Ata Bəyannaməsi olmalıdır".

Bəli, Alma-Ata Bəyannaməsini ehkamlaşdırmaq xətti yürüdən Ermənistan iqtidarı, o cümlədən, XİN rəhbəri A.Mirzoyan, ilk növbədə, ölkəsinin otuz ilə yaxın müddətdə həmin sənədə əhəmiyyət vermədiyini, işğalçılıq siyasəti yürütdüyünü nəzərə almır. Nəzərə almır ki, vaxtilə Ermənistan danışıqlar prosesini dalana dirədiyi üçün 44 günlük müharibə baş verdi. İndi heç nə olmamış kimi davranmaq, o cümlədən, həmin müharibənin ölkəsi üçün daha acınacaqlı nəticələr doğurmasının qarşısını almış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərinə etinasız yanaşmaq yolverilməzdir.

Digər yandan, Mirzoyan Alma-Ata Bəyannaməsinin prinsiplərinin sülh prosesində keçərliliyi ilə bağlı 2022-ci ilin Praqa sammitini qabardır. O sammiti ki, orada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşmüşdülər. Həmin görüşdə Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etmişdi. Əlbəttə, o zaman Qarabağ amili bir o qədər qabarıq deyildi. Rəsmi İrəvan tərəfindən Qarabağın Azərbaycan kimi tanınması məsələsi 2023-cü ilin mayında ölkə liderlərinin Brüsseldəki görüşündən sonra aktuallaşmağa başlamışdı. Ancaq erməni iqtidarı bir tərəfdən Brüsseldə Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdi, digər yandan isə bölgənin erməni əhalisi üçün beynəlxalq təminat məsələsini qaldırmağa başladı. Nəticə etibarilə Ş.Mişelin vasitəçilik missiyası iflasa uğradı. Paşinyan isə 2023-cü il sentyabrın əvvəlində yerli televiziyaya müsahibəsində bildirdi ki, Qarabağın özünün seçilmiş hakimiyyəti var. Beləliklə, Ermənistanın bölgəni Azərbaycan ərazisi kimi tanımasının heç bir əhəmiyyəti qalmadı. Buna görə Bakı lokal xarakterli antiterror tədbirləri həyata keçirərək Qarabağa tam nəzarəti, suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.



Deməli, Mirzoyan unutmamalıdır ki, təmsil olunduğu hakimiyyət heç vaxt konstruktiv davranmayıb və hazırda onun sırf sərhədlərin delimitasiyası və demarkasiyası prosesində Alma-Ata prinsiplərini ehkamlaşdırmaq xətti mənəvi baxımdan düzgün deyil. Əlbəttə, siyasi nöqteyi-nəzərdən də sırf sözügedən sənədin üzərində dayanmaq yolverilməzdir. Həm də ona görə ki, delimitasiya və demarkasiya məsələləri özlüyündə mürəkkəb prosesdir. Onu yalnız bir sənədə istinadən gerçəkləşdirmək ədalətli yanaşma sayıla bilməz.

Əlbəttə, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmalıdır. Ancaq bu zaman ölkəmizin müəyyənləşdirdiyi prinsiplər əsas götürülməlidir. Böyük ölçüdə İrəvanın həmin saziş üzərinə deyəcək heç bir sözü olmamalıdır. Çünki hazırda rəsmi İrəvan uzun müddətdir davam edən münaqişəni aradan qaldırmaq istəməyən, davamlı sülhə maneçilik törədən tərəf ampluasındadır, onun hansısa "xoş avazlı zəngulələr vurması" anlaşılmır. Elə isə Mirzoyanın ATƏT-in fəaliyyətdə olan sədri ilə birgə keçirdiyi mətbuat konfransında daha nələri dilə gətirdiyinə diqqət yetirək.

Bəli, Mirzoyan da Paşinyan kimi "Dünyanın kəsişməsi" təşəbbüsünüdən söz açır. Qəribə vəziyyət yaranır. Ermənistan Azərbaycanla sülh müqaviləsindən danışanda regional kommunikasiyaların açılması amilini önə çəkir, ancaq nədənsə həmin məsələnin üçtərəfli Bəyanat məntiqindən irəli gəldiyini qəbul etmir. Sual yaranır: "Dünyanın kəsişməsi" təşəbbüsü qaldırılırsa, o zaman nəyə görə Naxçıvana maneəsiz yol məntiqi, daha dəqiq desək, "Zəngəzur dəhlizi" ideyası bir kənara qoyulur? Sadə məntiq də onu deyir ki, "Zəngəzur dəhlizi" yoxdursa, "Dünyanın kəsişməsi" də ola bilməz. Deməli, indiki şərtlərlə sülh müqaviləsi regional kommunikasiyaların əvvəlki qaydada blokda saxlanılması şərti ilə imzalanmalıdır. Hər halda, İrəvan başqa yol qoymur. Bu durumda Ermənistanın əvvəllərdə olduğu kimi, təcriddə qalacağını isə ölkənin rəhbərliyi özü düşünməlidir. Düşünməli və nəticə çıxarmalıdır. Mirzoyanın, eləcə də digər erməni rəsmilərinin sözlərindən belə çıxır ki, dünya birliyi Azərbaycana bu məsələdə təzyiq göstərməlidir. Əlbəttə, məsələyə belə yanaşma qəbul edilə bilməz.

***

Gələk yazımızın ikinci hissəsinə. Yəni, Mirzoyanın Alma-Ata Bəyannaməsini ehkamlaşdırmaq üçün ATƏT-in boynuna məsuliyyət qoymaq istəməsinə. Əslində, burada söhbət yalnız sözügedən qurumun boynuna məsuliyyət qoymaqdan getmir. Ermənistan rəhbərliyi, ümumən, dünyadan Azərbaycanla sülh gündəliyi baxımından yardım istəyir. Yardım istəyir ki, özünə sərfəli nəticələr əldə etsin və ATƏT də bu baxımdan istisna deyil. Ona görə Mirzoyan bildirir ki, geosiyasi proseslər kontekstində ATƏT ciddi çağırışlarla üzləşir və bu çağırışlar təşkilatın alətlərindən və bütün mexanizmlərindən səmərəli istifadə etməklə, qurumun məsuliyyət zonasında mövcud olan problemlərin həllini bütün iştirakçı dövlətlərdən tələb edir: "Cənubi Qafqaz da ciddi problemlərlə üz-üzədir və onlar, öz növbəsində, dövlətlərin ərazi bütövlüyü və suverenliyi kimi əsas prinsipləri pozur. Bunlar birbaşa ATƏT-in mandatı ilə bağlı olan çağırışlardır və strukturun məqsədyönlü iştirakının vacibliyini vurğulayır", – deyə Mirzoyan əlavə edib.

Göründüyü kimi, A.Mirzoyan əslində, ATƏT-i erməni avantürası üçün alətə çevirmək əzmini ortaya qoyur. Ola bilər, vaxtilə mövcud olmuş Minsk qrupunun yenidən fəaliyyət göstərməsi də ağlından keçir. Ondan, bütövlükdə erməni iqtidarından hər şey gözləmək mümkündür... Belə davranış reallıqları nəzərə almamaq, sülh prosesinə əlavə elementlər qatmaq cəhdidir.

Rəsmi İrəvanın təmsilçiləri mütləq şəkildə düşünməlidirlər ki, indiki durumda heç bir kənar oyunçu onun Azərbaycanla sülh prosesinə töhfə vermək iqtidarında deyil. Bunu Azərbaycan Prezidenti İlham Əliyev də Şuşaya köçmüş sakinlərlə görüşündə tam aydın və dəqiq şəkildə izah etdi. Yaxşı olar ki, Ermənistan rəhbərliyi siyasətini dövlətimizin başçısının bildirdiyi fikirləri əsas götürməklə qursun, hansısa kənar motivlər axtarmağa girişməsin. Çünki hazırkı sülh şərtləri indiki dövr üçün qüvvədədir. Bu şərtlərin yerinə yetirilmədiyi hər an Ermənistan üçün zaman itkisidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Adı vətəndaş qurumu, özü vətəndaş qənimi

## “Daşnaksütyun”un “böyük məqsədlər naminə” öz ermənisinin də başını yeməsi təzə məsələ deyil

**Onlara Ermənistanla Azərbaycan arasında sülh sərf eləmir. Çünki bundan sonra onların bölgə ilə bağlı maraqlarını reallaşdırmaq şansları sıfıra bərabər olacaq. Məhz bu səbəbdən bir pozucu mərkəzdən idarə olunan anti-Azərbaycan cəbhəsi suyu bulandırmaq üçün, hətta, Ermənistanın baş naziri Nikol Paşinyanın üzərinə hücuma keçir, ona qarşı məntiqə sığmayan ittihamlar irəli sürür.**

“Baş nazir Nikol Paşinyan 1915-ci il faciəli hadisələrində erməniləri günahlandıran ilk erməni lider oldu”. ABŞ-də fəaliyyət göstərən “Soyqırımının qarşısının alınması üzrə Lemkin institutu” öz bəyanatında Paşinyanla yanaşı, Türkiyəni və Azərbaycanı da hədəfə alır. Beynəlxalq terrorizmin maliyyələşdirilməsində, çirkli pulların yuyulmasında adı hallanan və nəhayət, Qarabağda separatçı rejimi dəstəklədiyinə görə hazırda Bakıda məhkəmənin hökmünü gözləyən fırıldaqçı Ruben Vardanyan və ondan geri qalmayan digər dələduz Nubar Afyanın sponsorluq etdikləri bu “institut”, əslində, muzdlu mirzələr yığnağından ibarətdir. Üç il bundan əvvəl Birləşmiş Ştatlarda “Soyqırımının qarşısının alınması üzrə Lemkin institutu” adında qeyri-hökumət təşkilatı kimi qeydiyyatdan keçmiş bu qurumun idarə heyətində E.Poqosyan, L.Mirzoyan kimi erməni diasporunun radikal ünsürləri təmsil olunurlar.

* * *

Dünyada soyqırımı hallarına qarşı beynəlxalq mübarizənin formalaşmasında böyük rol oynamış professor Rafael Lemkinin (1900-1959) adından sui-istifadə edən bu təşkilat indi də Nikol Paşinyanın üzərinə hücuma keçib. Hər yerdə soyqırımı mövzusundan bəhs edildiyi kimi, Lemkin institutunun idarə heyətinin üzvlərindən biri də etnik ermənidir. Beləliklə, son illər Azərbaycana qarşı məqsədyönlü təbliğat kampaniyası aparan Amerikadakı bu qeyri-hökumət təşkilatı 1915-ci il hadisələrinin növbəti ildönümündə Paşinyanın erməni xalqına müraciətini kəskin tənqid atəşinə tutub. Bu qeyri-hökumət təşkilatının ekspertləri bəyanatlarında iddia edirlər ki, Ermənistan lideri xalqa ünvanladığı səhifə yarımlıq müraciətində üstüörtülü şəkildə “erməni soyqırımı”nı inkar etməyə çalışıb. Qeyd edək ki, aprelin 24-də xalqa müraciətində “mets yegern” ifadəsini ilk dəfə Paşinyan səsləndirib. 1915-ci ildəki məlum hadisələri dəyərləndirən baş nazir “böyük qırğında” birbaşa çar Rusiyasını və həmin illərdə Osmanlı İmperiyasının tabeliyində olan erməniləri günahlandırıb.

Baş nazir Nikol Paşinyan müraciətində bunları deyib: “...Birinci Dünya müharibəsi zamanı genişmiqyaslı faciə baş verib. Dövlətçiliyi olmayan, onu çox əsrlər əvvəl itirən erməni xalqı, əslində, özünün dövlətçilik ənənəsini unudub və 1915-ci ildə geosiyasi intriqaların, yalan vədlərin qurbanı olub. O, ilk növbədə, dünyanı və onun qaydalarını özü üçün başa düşülə bilən siyasi təfəkkürdən məhrum idi”.

Lemkin institutunun Nikol Paşinyanın aprelin 24-nə təsadüf edən müraciətinə reaksiyasına gəlincə, bunu mübaliğəsiz sensasion hesab etmək olar. Çünki Ermənistan baş naziri özünün “soyqırımı” açıqlaması ilə bu QHT-nin ekspertlərini, Vaşinqtondakı ermənipərəst qüvvələri nəinki təəccübləndirməyə, hətta hiddətləndirməyə nail olub. Daşnakların və “beşinci kolon”un yönəltdiyi Ermənistan müxalifətinin nümayəndələrinin proqnozlarının əksinə olaraq, Paşinyan 24 aprel müraciətində “soyqırımı” sözünü dilə gətirsə də, mətnə, adətən, xaricilərin işlətdiyi “mets yegern” (“böyük qırğın”) ifadəsini də əlavə edib. Bununla da, o, cəmiyyətə “1915-ci il hadisələrini “soyqırım” adlandırmaq istəmirəm” mesajını vermiş olub.

* * *

Kağız üzərindəki nizamnaməsinə əsasən, fəaliyyəti dünyanın müxtəlif guşələrində baş verən etnik təmizləmə və soyqırımı aktlarını öyrənmək, eləcə də onların qarşısının erkən alınması üçün xəbərdarlıq etmək missiyasını yerinə yetirmək olan ictimai təşkilat təsis olunduğu gündən işinin çox hissəsini Azərbaycana qarşı uydurma ittihamlar və ideoloji hücumlar üzərində qurub. Keçən ilin sentyabrında Azərbaycanın Qaqrabağda həyata keçirdiyi lokal antiterror tədbirindən sonra bu başabəla QHT ABŞ və Avropa ictimaiyyətinin diqqətini Qarabağda “etnik ermənilərə qarşı soyqırım təhlükəsi”nə yönəltməyə çalışırdı. Bundan bir nəticə hasil olmayanda isə Bakı ilə sülhə və əməkdaşlığa meyillənmiş baş nazir Nikol Paşinyanın üzərinə total hücümlürın təşkilatçısı rolunda çıxış etməyə başlayıb.

Lemkin institutu yaydığı bəyanatında iddia edir ki, baş nazir Paşinyan Ermənistan xalqına müraciətində “soyqırıma görə Türkiyə və Azərbaycanın məsuliyyətini şübhə altına alıb”. İntəhası, bu zaman institunun “ekspertləri” bu məsələnin 1915-ci ildə, ümumiyyətlə, mövcud olmayan Azərbaycanla hansı əlaqəsinin olduğunu izah etməyi “unudublar”. Amma bunun əvəzində təşkilatın başbilənləri qeyd edirlər ki, “diqqətçəkən ən vacib amil odur ki, Paşinyanın “soyqırım”la bağlı xalqa müraciətində “təcavüzkarlardan” bəhs edilmir. “Ermənistan baş naziri Osmanlı İmperiyasının rəhbərliyini soyqırımda günahlandırmaq əvəzinə, siyasi vəziyyəti düzgün anlamadıqları üçün soyqırımı öz üzərlərinə götürmüş kimi görünən ermənilərə ox atdı”, – Lemkin institutunun bəyanatında deyilir.

Daha sonra Vaşinqtonlu “soyqırımı ekspertləri” belə bir yanlış versiyanı irəli sürürlər ki, 1915-ci il hadisələri ilə bağlı Türkiyənin tezislərini təkrarlayan Nikol Paşinyan müasir Ankaranın bu hadisələrə görə məsuliyyət daşımadığını bəyan edir. Bununla da, o, “erməni soyqırımı”nın tanınması istiqamətində indiyədək göstərilən səylərə zərbə vurur. Bunun ardınca institut Ermənistan baş nazirini müraciəti redaktə etməyə və rəsmi İrəvanın “erməni soyqırımı” məsələsində “ədalətə nail olmaq” səylərinə sadiq qaldığını bir daha təsdiqləməyə çağırıb. Lemkin institutunun çağırışlarına Ermənistan hökumətindən rəsmi cavab verilməyib. Yalnız o məlumdur ki, baş nazirin mətbuat katibi bu mövzunu işıqlandıran jurnalistlərə “yazılı şəkildə sorğu göndərməyi” tövsiyə edib.

* * *

İqtidardakı “Mülki müqavilə” partiyasından olan deputat Arusyak Culakyan Lemkin institutunun bəyanatını Ermənistanın daxili işlərinə və siyasi həyatına “kobud və qəbuledilməz müdaxilə” kimi qiymətləndirib. Parlamentari sözlərinə onu da əlavə edib ki, nə baş nazir, nə də başqa rəsmilər heç vaxt “soyqırımı”nı inkar etməyiblər. A.Culakyanın sözlərinə görə, əslində, Lemkin institutunun bəyanatını “Daşnaksütyun” partiyasının Amerika ofisi hazırlayıb. “Ermənistanın xarici siyasətinin qiymətləndirilməsi özlərini tədqiqat institutu adlandıranların səlahiyyətlərindən çox kənara çıxır”, – deyə deputat vurğulayıb.

Erməni deputat, həmçinin ümid etdiyini bildirib ki, institut “Ermənistanın daxili siyasi diskursunda iştirak etməkdən çəkinəcək və bundan sonra özünün bəyan etdiyi məqsədlərinə, yəni soyqırımların qarşısının alınmasına diqqət yetirəcək”.

Rəsmi Vaşinqtonun qeyri-rəsmi patronajlığını qazandığı şübhə doğurmayan bu qeyri–hökumət təşkilatı saytında bəyan edib ki, onun fəaliyyətinin əsas qayəsi soyqırımının qarşısının alınması üsullarını təbliğ etməklə bütün dünyada əhalinin geniş təbəqələrini birləşdirməkdir. Amma təəssüf ki, belə xoşməramlı missiyanın çətiri altında Lemkin institutu lövbər saldığı ölkənin geosiyasi maraqlarına qulluq göstərdiyini dəfələrlə sübuta yetirib. İndi də monoetnik Ermənistan, torpaqlarımızı otuz il işğal altında saxlamış vandalların törətdiyi çoxsaylı soyqırımı aktlarını görməzdən gələn bu qeyri-hökumət təşkilatı, üstəlik, Azərbaycana böhtan atmağa, onun güclənməkdə olan beynəlxalq imicini ləkələməyə çalışır.

Qısa araşdırmanın nəticəsində üzə çıxır ki, Lemkin institutu, bir növ, erməni lobbisinin okeanın o tayındakı filialı kimi fəaliyyət göstərməkdədir. Korporativ maraqlarının qarşılanması müqabilində işləyən bu bədnam qurum gerçək soyqırımlarını araşdırmaq, onların qarşısını almaq barədə düşünmür, faktiki olaraq, “erməni soyqırımı” epidemiyasının yoluxdurucusu missiyasını yerinə yetirir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



Görünən odur ki, bir sıra xarici institut və təşkilatlar Azərbaynla Ermənistan arasında münasibətlərin normallaşmasını görərək, hərəkətə keçiblər. Onlar hesab edirlər ki, rəsmi İrəvanın 1915-ci il hadisələrinə yanaşması düzgün deyil. Lemkin institutu deyilən təşkilat bununla bağlı Nikol Paşinyana birbaşa iradını bildirib. Amma Ermənistanın baş naziri, əslində, aprelin 24-də “soyqırımı” ifadəsini işlətməməklə reallığa daha yaxın olub. Doğrudur, tam mənada yaxın olduğunu da deyə bilmərik. Bu məqam bəzi dairələri möhkəm qıcıqlandırıb. Başqa bir məqam isə ondan ibarətdir ki, həmin dairələr Ermənistanda daxili vəziyyəti gərginləşdirmək üçün yeni addımlar atmağa başlayıblar. Bundan ötrü ən müxtəlif vasitələrdən, bəhanələrdən istifadə olunur. Əsas məqsədləri Paşinyanı devirməkdir. Yəni, bununla baş nazirə zərbə endirməyə çalışırlar. Ən maraqlısı odur ki, həmin Limken institutunun mövqeyi hazırda Moskvanın mövqeyi ilə, müəyyən mənada, üst-üstə düşür. Emmanuel Makron da Paşinyanın atdığı son siyasi addımlarından narahatdır, amma soyqırımı ilə bağlı hansısa bəyanat və ya açıqlama verməyib. Paris, xüsusilə, Ermənistandakı mövcud daxili durumdan və onun Rusiya ilə yaxınlaşmasından əndişələnir.

Hesab edirəm ki, bu cür bəyanatlar, yanaşmalar Nikol Paşinyanı hakimiyyət uzaqlaşdırmağa səbəb ola bilməz. Çünki, Paşinyanın da kifayət qədər tərəfdarı var. Əlbəttə ki, bu, İrəvanın soyqırımı ilə bağlı yeni və fərqli açıqlamasıdır. Yəni, buna qədərki məlum bəyanatlarla bəzi qüvvələri sakitəşdirirdilər. Artıq yeni yanaşmanı bəhanə edən maraqlı qüvvələr Ermənistan haklimiyyətinə zərbə endirməyi hədəfləyirlər. Amma yaxın gələcəkdə bunun reallığa çevriləcəyi qeyri-realdır.

### REPLİKA

# “Böyük bacı”nın “ikibaşlı” alqışı

## yaxud “siyasi vedovillər” tamaşaçısız qalıb

**Uzun sürən sükutdan sonra Yelisey sarayından da Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatı görüşü ilə bağlı açıqlama gəldi. Fransa Xarici İşlər Nazirliyinin saytında dərc olunmuş bəyanatda deyilir ki, o, sülh danışıqlarının Almatıda keçirilən yeni raundunu alqışlayır. Alqışlamağına alqışlayır, amma, əvvəllər olduğu kimi, yenə də ikibaşlı və təkəbbürlü şərhindən qalmır.**



Ermənilərə “böyük bacılıq” missiyasını yerinə yetirməkdən əl çəkməyən Paris iki ölkə arasında aparılan delimitasiya işlərini sona çatdırmağın vacibliyini xatırlatmağı da “unutmur”. Guya, İrəvan və Bakı bu işləri onun “xeyir-duası” olmadan yerinə yetirməyə qadir deyil. Sanki, Tavuşda başlayan sərhədin demarkasiyası, Azərbaycanın işğaldakı dörd kəndinin geri qaytarılması məhz Yelisey sarayından verilən göstəriş əsasında həyata keçirilib.

Fransa XİN-nin bəyanatında keçmişə “nəzər salması” da təsadüfi deyil: “2022-ci il oktyabrın 7-də Praqada keçirilən dördtərəfli görüşün davamı kimi tərəflərin 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliyini və bir-birinin ərazi bütövlüyünün qarşılıqlı tanınmasını təsdiqləməsi vacibdir”.

Özünü hələ də tərəflər arasında “sülhyaradan” vasitəçi statusunda görmək istəyən Makron hakimiyyəti, görünür, sülh danılşıqaların bundan sonra yalnız ikitərəfli formatda, vasitəçilərsiz davamını qəbul etməkdə çətinlik çəkir. Bu səbəbdən Bakının birmənalı şəkildə imtina etdiyi kənar aktor kimi tərəflərə məsləhət verməyə çalışır: “Fransa 19 aprel 2024-cü il tarixli bəyannamədə qəbul edilmiş prinsiplərə əsaslanaraq sərhədin delimitasiyasını, həmçinin iki ölkə arasında sülh müqaviləsinin imzalanması məqsədilə müzakirələri davam etdirməyə çağırır”.

Məsləhətlərinə nəinki Bakının, artıq İrəvanın da ehtiyac duymadığı rəsmi Paris “Qazaxıstan hakimiyyətinin sülh danışıqlarını asanlaşdırmaq təşəbbüsünü alqışladığını” bildirir. Bəyanatda yer alan sonuncu tezis isə Fransanın Cənubi Qafqazla bağlı planlarının başa çatmadığına işarə sayıla bilər: “Beynəlxalq hüquqa uyğun olaraq Cənubi Qafqazda ədalətli və davamlı sülhün bərqərar olması üçün Fransa tərəfdaşları ilə birgə fəaliyyətini davam etdirəcək”.

Buna alqışdan sonra gələn açıqlamanı Parisin boyundan yuxarı “tullanması”, ya da sadəcə, minnətli “qulp” adlandıra bilərik. Yəni, Parisin “tərəfdaşları ilə birgə fəaliyyətini” hansı formada və hansı platformada davam etdirəcəyini özündən başqa heç kəs bilmir. Ən azı, son üç ildə bu “fəaliyyətin” xarakter və mahiyyətini yaxşı bilən Azərbaycan hakimiyyəti üçün Yelisey sarayında əyləşənlərin sülh danışıqlarının indiki mərhələsində nəyi planladıqlarının heç bir əhəmiyyəti yoxdur. İyirmi səkkiz il ATƏT-in Minsk qrupunun həmsədri kimi Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsində özünü neytral vasitəçi kimi deyil, tərəfkeş olaraq təsdiqləmiş Fransa indi hansı üzlə “dəstəkçi”, yaxud “məsləhətçi” rolunda çıxış edir? İki il bundan əvvəl “Ermənistan bizim xüsusi əlaqələrmiz olan ölkədir. Ondan heç bir halda vaz keçməyəcəyik” bəyanatını verən Emmanuel Makronun bununla Bakının yox, İrəvanın başının altına “yastıq qoyduğunun” artıq hamı fərqindədir. Doğrudanmı, bütün bunlardan sonra Fransa “vasitəçiliyi”nin Azərbaycan tərəfindən qəbul ediləcəyinimi düşünür? O, afrikalılardan qopara bilmədiyi güzəştləri qafqazlılardanmı əldə etmək fikrindədir?

Bakı üçün Fransa pərdələri endirilən retro-tamaşadır. Daha belə siyasi vedovillərə nə bilet alan var, nə də baxan. Çünki, indi “Qafqaz evi”nin sakinləri mübahisə və anlaşılmazlıqları öz aralarındakı səhnədə həll edirlər. Bakı və İrəvanın bundan sonra “beynəlxalq statuslu” kənar həmsədrlərə, “sülhməramlı missiyalara”, təmənnalı vasitəçilərə bilmərrə ehtiyacları yoxdur!

***İ.HƏSƏNQALA***
***XQ***

# Ermənistanda “impiçment” sövdələşməsi

**(əvvəli 1-ci səhifədə)**

Maraqlıdır ki, Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulin də həmin “cəbhədədir”. Əli hər yerdən üzülmüş bu şəbəkə Paşinyanı, guya, qanuni yolla, impiçmentlə devirməyə çalışır. Baş nazirin impiçment proseduruna başlamaq təklifini ilk dəfə mayın 9-da Respublika meydanında keçirilən mitinqdə B.Qalstanyan səsləndirib. Ancaq ölkənin media orqanları dərhal araşdırma apararaq, hazırkı siyasi qüvvələr nisbətində bunun mümkün olmayacağını bəyan ediblər. Qaydalara görə, siyasi qüvvə baş nazirliyə öz namizədini təqdim etməli və müvafiq formanı aldıqdan sonrakı 24 saat ərzində 36 deputatın imzasını toplamalıdır. Hazırda müxalifətçi “Hayastan” və “Şərəfim var” fraksiyalarının birlikdə cəmi 35 deputatı var. Onlar ya yeganə bitərəf deputat İşxan Zakaryanın, ya da hakim qüvvədən bir deputatın dəstəyini almalıdırlar. Məsələ Zakaryanla müzakirə olunmayıb, hakim fraksiyada isə mərkəzdənqaçma əhval-ruhiyyəsi hələ hiss olunmur. Lazımı sayda imzalar toplandıqdan sonra 48-72 saat ərzində səsverməyə başlamaq tələb olunur. İmpiçment üçün minimum 54 səs lazımdır, yəni müxalifət əlavə daha 18 deputatın dəstəyini almalıdır. Bu qədər sayda səs ala bilməyəcəyini görən etirazçılar məsələni “küçədən təzyiq” yolu ilə həll edəcəklərinə inanırlar. Onların qarşıdakı günlərdə etiraz aksiyalarını genişləndirmək istəyi də bununla bağlıdır.

Hazırda bölgədə sülh tərəfdarı qismində isə Avropa İttifaqının rəhbərliyi, ABŞ Dövlət Departamenti və Türkiyə çıxış edirlər. Əgər, biz bunları bir-birindən ayırmasaq baş verənləri aydın qiymətləndirə bilmərik. ABŞ-nin “The National Interest” jurnalında Ermənistanda davam edən etirazlara və Bakı-İrəvan sülh prosesinə həsr olunmuş məqalədə qeyd edilir ki, Azərbaycanla çoxdan müzakirə olunan sülh sazişinin imzalanması, üstəlik, bunun ardınca Türkiyə ilə əlaqələrin qurulması ölkənin uzun illərdir davam edən regional təcrid vəziyyətinə son qoymağa imkan verəcək. Bu da öz növbəsində, Ermənistanın Azərbaycan və Türkiyə kimi müxtəlif layihələrdən iqtisadi fayda əldə edə bilməsinə imkan verəcək. Söhbət Orta dəhliz, “Bir kəmər, bir yol” və “Qlobal qapı” kimi layihələrdən gedir. Qeyd edilir ki, Paşinyan reallıqda Ermənistanın seçiminin olmadığını artıq səmimi şəkildə başa düşür: Ölkə mümkün qədər tez regional dinamikaya reinteqrasiya edilməlidir. Bu, Bakı və Ankara ilə barışıq deməkdir ki, bu da istər-istəməz “Artsax”ın bitdiyi, “tarixi” və ya “böyük Ermənistan” xülyasının unudulduğu sərt reallığın etirafını tələb edir.

**Mövzu üzrə söhbətləşdiyimiz Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov bildirdi ki,** bu gün



Ermənistan daxilində baş verənlər Bakı və İrəvan arasında aparılan sülh danışıqları prosesinə zərbə vurmaq istəyən revanşistlərin xarici qüvvələrin hesabına aktivləşdiklərini göstərir. Onun sözlərinə görə, Nikol Paşinyandan qisas almaq istəyən və onunla şəxsi ədavəti olan qüvvələr bu istiqamətdə xüsusi fəallıqları ilə seçilirlər. Bu prosesdə bəhanə kimi Qazax rayonunun 4 kəndinin Azərbaycana qaytarılmasını və Ermənistan hökumətinin qarşıdakı aylarda ölkəmizə daha çox güzəştə gedəcəyini göstərirlər. Baqrat Qalstanyan başda olmaqla, revanşistlər, əslində, özlərinin şəxsi mənafelərini güdərək, erməni xalqını növbəti dəfə daha böyük çağırışla üz-üzə qoymaq istəyirlər: “Biz aksiyanın taktikasına nəzər yetirsək, onun təşkilatçılarının Paşinyan hakimiyyətə gələrkən yararlandığı taktikadan istifadə etdiyini görərik. Yenə saqqallı, adi geyimli və guya, cəmiyyətin sıravi üzvü, siyasi proseslərdən uzaq olan bir şəxsi – bu dəfə din xadimini ortaya atıblar. Əlbəttə, bu da təsadüfi deyil. Adətən, din xadimlərindən Yaxın Şərqin müxtəlif ölkələrində ayrı-ayrı beynəlxalq mərkəzlər istifadə edirdilər. Həmin mərkəzlər din xadimlərinin köməyi ilə 2011-ci ildə başlanan və “Ərəb baharı” adlanan proseslər zamanı Yaxın Şərqin ayrı-ayrı ölkələrində inqilablar etməyə müvəffəq olmuşdular. Biz beynəlxalq münasibətlər sistemində ilk dəfədir ki, xristian ölkəsində məhz arxiyepiskopun başçılığı altında çevrilişə cəhdə şahidlik edirik”.

Politoloq qeyd etdi ki, bu da səbəbsiz deyil. Erməni xalqı daim kilsə ilə bağlı olub. Din və diaspor haylar üçün hər zaman təkanverici qüvvə kimi çıxış edib. İstər “Daşnaksütyun” partiyasına, istər “Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu”, yəni ASALA qruplaşmasına, istərsə də onların din xadimlərinin etdikləri moizələrə nəzər yetirsək, görərik ki, erməni ideyasının, “böyük Ermənistan” xülyasının, ümumiyyətlə, bütün miflərin arxasında hər zaman kilsə və diaspor dayanıb. Bu dəfə də kilsə və diaspor N.Paşinyanı hakimiyyətdən devirmək üçün hərəkətə keçib.

Z.Məmmədovun sözlərinə görə, müxalifət və onun arxasında dayanan qüvvələr sabiqləri birbaşa yolla hakimiyyətə qaytarmağın mümkün olmadığını ötən bir neçə ildə dəfələrlə gördü: “Xalq onların arxasınca getməyəcək. Buna görə də kilsə faktorundan istifadə etmək qərarına gəldilər. II Qaregin özü də çox yaxşı başa düşürdü ki, əgər o, hərəkətə keçməsə, o zaman Paşinyan kilsə ilə bağlı öz bildiklərini edəcək. Ümumiyyətlə, erməni kilsəsi və onun arxasında dayanan qüvvələr başa düşməlidirlər ki, hadisələr kilsənin də, necə deyərlər, başı üzərində qara buludların yaranmasına gətirib çıxaracaq.

Əgər Azərbaycanın indiyə qədərki tələblərindən ən mühümü Ermənistan konstitusiyasının və digər normativ-hüquqi aktlarının dəyişdirilməsi idisə, kilsənin canfəşanlığı sübut edir ki, Paşinyan iqtidarı təkcə qanunların dəyişdirilməsini deyil, eyni zamanda, kilsənin gələcək statusu və müqəddəratı məsələsini də həll etməlidir. Əks-təqdirdə erməni kilsəsinin özü daim Cənubi Qafqazda ürək bulandıran faktor olaraq qalacaq. İki ölkə arasında sülhün dayanıqlı olması üçün bu bədnam faktor mütləq şəkildə aradan qaldırılmalıdır.

Baqrat Qalstanyanın mayın 12-də keçirilən mitinqdəki çıxışlarında Qarabağla bağlı məsələlərə, o cümlədən, bölgəyə qayıdışa dair eyham vurması onu göstərir ki, Paşinyanı hakimiyyətdən devirərlərsə, erməni kilsəsinin və dövlətinin gələcəkdə hansı coğrafiyada, hansı sərhədlər daxilində olmasının müqəddəratını da həll etməli olacağıq. Buna görə də erməni xalqı baş verən hadisələrdən ciddi nəticə çıxarmalı, meydanlara çıxan bu şəxlsərin əsl təxribatçı olduğunun fərqinə varmalıdır”.

Müsahibimiz bildirdi ki, 2018-ci il hadisələri zamanı olduğu kimi, bu dəfə də etirazçılar gənclərdən istifadə etmək istəyirlər. Onlar gördülər ki, Tavuşdan İrəvanadək olan 160 kilometrlik yürüşdə müəyyən sayda insan iştirak etsə də, cəmiyyətin avanqard hissəsi olan gənclər çatışmır. Bu mənada universitet rəhbərliklərinin N.Paşinyanın, yoxsa müxalifətin yanında yer alacağı olduqca mühüm məqamlardan biridir. Çünki gənclər təkanverici və ən radikal qüvvə kimi proseslərin istiqamətini bu və ya digər şəkildə dəyişə bilərlər.

Onu da qeyd edək ki, bir neçə gün əvvəl Ermənistan parlamentindəki əksər siyasi qüvvələrin sabiq prezident R.Koçaryanın rəhbəri olduğu “Hayastan” blokunun ətrafında toplanması onların bu günədək susduqlarını, ancaq gələcəklə bağlı planlar qurduqlarını da göstərdi. Təxribatçılar arasında Qarabağdakı keçmiş separatçı rejimdə çalışan şəxslərin, səhra komandirlərinin, generalların olması həm kilsənin, həm “Daşnaksütyun”un, həm Serj Sarkisyanın “Respublika” partiyasının, həm də ayrı-ayrı ölkələrdəki diaspor təşkilatlarının baş verən iğtişaşlarda rolunun olduğunu göstərən məqamlardır.

Əlbəttə, Bakı və İrəvan arasında danışıqların müsbət məcrada getdiyi bir zamanda belə təxribatların olması gözlənilən idi. Bu oyunlar şərti sərhəddə də törədilə bilərdi. İndiki halda isə Ermənistanın daxilində baş verdi. Məqsəd aydındır: Bir tərəfdən, “Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş” layihəsinin imzalanmasına mane olmaq, digər tərəfdən N.Paşinyanın kürsüsünü, əvvəlcə necə deyərlər, laxlatmaq, sonra devirmək və sonda onu həbs etməkdən ibarətdir. Bütün bunlar Azərbaycan üçün yeni çağırışlardır. Ancaq, görünür, revanşistlər ölkəmizin istənilən cavaba hazır olduğunu unudublar...

***Səxavət HƏMİD***
***XQ***

# AMEA-nın yeniləşmə kursu: dövlətçilik və müasirlik kontekstində

## (fəlsəfi yanaşma)

I MƏQALƏ

**Amerika siyasətçiləri bu fikirdədirlər ki, müasir mərhələdə elmsiz nə cəmiyyət, nə də dövlət mövcud ola bilər. Ona görə də elm dövlətə xidmət etməlidir! Dövlət və cəmiyyət "elmin çiyinləri üzərində bərqərar olur"! İndi bu tezisin prizmasında Azərbaycanın da "elmin çiyinləri üzərində necə bərqərar ola biləcəyi" fikrinə AMEA-nın yeniləşməsi kontekstində nəzər salaq.**

### Elm siyasətinin bir aspekti

Hər bir təşkilatın yeniləşməsi asan və sadə proses deyildir. Dövlətçiliklə bağlı olan strateji qurumların yeniləşməsi ayrıca məsuliyyət tələb edir. Çünki bu proses elə təşkil edilməli və aparılmalıdır ki, müstəqil dövlətçiliklə müasirlik arasında hər hansı ziddiyyət meydana gəlməsin. Ulu öndər Heydər Əliyev bu özəlliyi nəzərə alaraq, bütövlükdə, Azərbaycan Respublikasının inkişaf strategiyasında dövləti tərəqqi ilə cəmiyyətin inkişafını ahəngdar formaya salmışdır. Bura cəmiyyətin bütün fəaliyyət sahələri, xüsusilə elm və təhsil sahələri daxildir. Çünki müasir dövrdə cəmiyyətləri faktiki olaraq elmin yaratdığı haqqında hamının bildiyi fikir vardır.

Digər tərəfdən, müstəqil dövlətçiliyin inkişafının təməlinə ümummilli lider Heydər Əliyev, ümumiyyətlə, həmahəng inkişaf xəttini, harmonik tərəqqini qoymuşdursa, bu çərçivədən kənara çıxan istənilən təşəbbüs uğursuz olacaqdır. Bu tezisin doğru və vacib olmasının ən böyük nümunəsini Prezident İlham Əliyev göstərir: dövlət başçısı siyasi varisliyə ən incəliklərinə qədər əməl edir və Heydər Əliyev dövlət quruculuğu xəttini yaradıcı inkişaf etdirir. Bu da alimlərə imkan verir ki, indiki mərhələni "Heydər Əliyev – İlham Əliyev xətti" kimi dəyərləndirə bilsinlər.

Tarixi kontekstdə bu vəziyyət Azərbaycan xalqı və onun aparıcı kəsimi olan ziyalılar üçün böyük şansdır! Çünki Heydər Əliyev – İlham Əliyev xətti təkcə şüar və ya nəzəri səsləniş tezisi deyildir. Bu xətt real həyatda, mürəkkəb geosiyasi və siyasi-ideoloji şəraitdə ciddi tarixi uğurları təmin edən dövlətçilik kursudur!

AMEA-nın yeniləşmə fəlsəfəsinin qayəsində də, fikrimcə, məhz bu reallıq dayanır. Ölkənin baş elmi təşkilatının rəhbərliyi həmin gerçəkliyi dərindən, geniş və aydın dərk edərək, Heydər Əliyev – İlham Əliyev xəttinin potensialından maksimum yararlanır! Məncə, AMEA-nın hazırkı yeniləşmə xəttini öncəki yeniləşmə kurslarından fərqləndirən başlıca xüsusiyyət bununla əlaqəlidir. Təşkilatın yeniləşmə prosesində indi müşahidə edilən bir sıra xüsuiyyətlər də həmin tezislə bağlıdır.

Bu prizmadan baxanda AMEA-nın yeniləşməsinin bir kurs olaraq bəzi maraqlı və əhəmiyyətli aspektləri üzərində fəlsəfi dayanmağa ehtiyac görürük. Konkret olaraq iki aspektin qarşılıqlı əlaqəsinin fəlsəfəsinə baş vurmağı zəruri sayırıq. Onlar təşkilatdaxili yaradıcı və struktur-funksional xüsusiyyətlərlə dövlətçilik və müasirliyin optimal sintezinin tapılması ilə bağlıdır.

### Yeniləşmə: daxili struktur-funksional özəlliklər

AMEA 1945-ci ildən əvvəlcə Azərbaycan SSR-in, sonra isə müstəqil Azərbaycan Respublikasının baş elmi təşkilatı kimi fəaliyyət göstərir. Elmi fəaliyyət baxımından az müddət deyildir. Onun fəaliyyəti birbaşa dövlətə xidmət etmək məqsədi kontekstində müəyyənləşmişdir.

Sovetlər dönəmində Elmlər Akademiyası birbaşa sovet ideoloji və siyasi sisteminin tələblərinə uyğun strukturlaşmış və elmi fəaliyyət istiqamətləri müəyyən edilmişdir. Bu, hər kəsin aksiom və hətta, təbii olaraq, qəbul etdiyi tezisdir. Əksini düşünən belə yoxdur. O dövrdə müxtəlif elm adamlarının məruz qaldıqları repressiv xarakterli tədbirlərə belə SSRİ-nin maraqları prizmasında haqq qazandıranlar az deyillər. Özü də bu, yalnız Azərbaycanı əhatə etmirdi, bütövlükdə, SSRİ-nin elmi dairələrinə münasibət belə idi. Onun ümumi xarakteristikası belə idi ki, elm dövlətə xidmət etməlidir və hətta, ideologiyada onu müdafiə etməlidir. Bu mövqenin mənfi tendensiyaları ilə bağlı nümunələri indi hər kəs bilir. Ancaq bizim baxdığımız kontekstdə əsas tezis ondan ibarətdir ki, SSRİ məkanında olan hər bir elmi təşkilat dövlətə bağlı olmalı idi. Bu ənənə formalaşmışdı və ondan kənara çıxmaq mümkün deyildi.

Başqa xüsusiyyətləri ilə yanaşı, bu, o deməkdir ki, müstəqil Azərbaycana SSRİ dövrünün konkret xüsusiyyətlərini struktur və funksional aspektlərdə özündə daşıyan (müsbət tərəfi ilə yanaşı, neqativ cəhətləri də) Elmlər Akademiyası miras qaldı. Burada dəyişməyən bir zərurət vardı: EA dövlətə xidmət etməli idi, ancaq sovetlərin ideoloji məcburiyyət xətti mütləq təmizlənməli idi. Yəni AMEA müstəqil Azərbaycan dövlətçiliyinin inkişafına töhfələrini verməli idi. Bunun üçün Ulu öndərin bir tezisi strateji hədəfi göstərirdi: AMEA Azərbaycanın milli sərvəti olmalıdır!

Həmin kontekstdə təşkilatda struktur-funksional yeniləşmələr bir qaçılmaz zərurət kimi görünür. Bu prosesin də, ən azı, iki mühüm tərəfi mövcuddur: birincisi, təşkilatın elmi tədqiqatların təşkili və kollektiv yaradıcılığın təmin edilməsi istiqamətində yeniləşməsi, ikincisi, təşkilatda sovetlərdən qalmış bir sıra psixoloji məqamların aşılması. Hər iki aspekt çox önəmlidir.



### Elmi tədqiqatların təşkili və kollektiv yaradıcılıq

AMEA-nın indiki rəhbərliyi bu istiqamətdə konkret islahatlar həyata keçirir. Onun ümumi məğzi AMEA-nın bütün sturkturları arasında optimal idarəetməyə və kollektiv yaradıcılığa optimal imkan verən mühitin yaradılmasından ibarətdir. Burada "optimallıq" dedikdə, Azərbaycanın strateji inkişaf kursunun tələblərinə maksimum dərəcədə cavab verən idarəetmə strukturu və kollektiv yaradıcı mühitin formalaşması nəzərdə tutulur. Yəni bütün hallarda AMEA-nın struktur-funksional qurum kimi, yeniləşməsi müstəqil dövlətçiliyin uğurlu inkişafına xidmətə bağlıdır.

Hazırda AMEA-da müşahidə edilən yenidən təşkilolunma prosesi həmin məqsədi ifadə edir. Bu prosesin tədrici və mərhəlli həyata keçirilməsi vacibdir. Çünki söhbət idarəetmədə çox ciddi keyfiyyət və forma dəyişikliyindən gedir. Əlavə olaraq, müstəqil dövlətçilik başlıca məqsəd kimi qarşıya qoyulursa, sovetlərdən qalma bir sıra idarəetmə, işə münasibət və psixoloji davranma xüsusiyyətləri aradan qaldırılmalıdır. Bunun bir çox struktur, funksional və psixoloji faktorları əhatə etdiyi və sistemli olaraq aparılması lazım gəldiyinin bir vəzifə olduğunun hər kəs fərqindədir. Digər tərəfdən, həmin prosesin kollektiv fəaliyyət nəticəsində uğurlu ola biləcəyini də anlamağımız lazımdır. Burada bir mühüm psixoloji məqamın üzərində dayanmaq istərdim.

### Psixoloji maneələrin aşılması

İndi AMEA prezidenti çox fəaldır. Demək olar ki, yorulmadan və fasiləsiz təşkilatın dövlətçiliyə bağlı formada yeniləşməsi üçün çalışır. AMEA rəhbərliyi bütün fiziki, təşkilati, zehni potensialını dövlətçiliyin strateji inkişaf kursuna xidmətə yönəltmişdir!

Təbii ki, bu, bütün AMEA üçün bir nümunədir. Həm də dövlətçiliyə xidmətdə fəallığa dəvətdir. Əlbəttə, kollektivin buna reaksiyası çox müsbətdir. Eyni zamanda, bir sıra psixoloji sindrom halları var ki, onlardan açıq danışmaq zamanıdır.

AMEA-da köklü yeniləşmə ancaq kollektiv fəaliyyətin nəticəsində reallaşa bilər. Hər şeydən öncə, əməkdaşlar dövlətin strateji inkişaf kursuna xidməti indiki mərhələdə başlıca məqsəd kimi qəbul etməlidirlər. Kollektiv bunu qəbul edir. Bu istiqamətdə AMEA rəhbərliyi ilə daha mükəmməl və ardıcıl şəkildə fəaliyyət göstərmək çox vacibdir. Psixoloji məqamın aktuallığı, bütövlükdə, müasir mərhələdə elmi fəaliyyətin fəlsəfəsindən qaynaqlanır. Məsələ ondan ibarətdir ki, Qərbin elmi dairələrində tədqiqatçıların hansı dəyərlərə malik olması ilə bağlı konkret mövqe formalaşmışdır.

Avropada və ABŞ-də elmi araşdırmaların Qərb dövlətçiliyinin inkişafına sıx bağlı olması tezisi açıq və ya örtülü formada özünü göstərir. Təkcə ABŞ-da xüsusi xidmət orqanlarının təşəbbüsü ilə 300 (!)-dən çox strateji araşdırma mərkəzinin yarandığı haqqında informasiyalar var. Bu xüsusiyyət dünyanın hər bir inkişaf etmiş ölkəsinə xasdır. Tamamilə başa düşülən və normal qəbul edilməli olan haldır. Çünki heç zaman mücərrəd və cəmiyyətə aidiyyatı olmayan elmi fəaliyyət növü mövcud olmamışdır. Qədimdən Sokrat, Platon və ya Aristotel cəmiyyət üçün elm yaratmamışlarmı? Sokratın sarkazmı yunan cəmiyyəti və dövlətinin inkişafı, qanunlara əməl edilməsi naminə deyildimi? Sokrat həyatından "dövlətin qanunlarına əməl etmək zəruridir" fikri əsasında mərhum olmadımı?

Və yaxud hazırda inkişaf etmiş dövlətlər elmi araşdırmalara çox güclü maliyyəni nə üçün ayırırlar? Çünki elmi tədqiqatların nəticələrindən dövlətin və cəmiyyətin güclənməsi, tərəqqi etməsi üçün çox geniş istifadə edirlər. ABŞ-də Santa-Fe İnstitutu dünyanın ən istedadlı alimlərini müxtəlif elmi layihələrə hansı səbəbdən dəvət edir? O səbəbdən ki, alınan elmi nəticələrdən ilk olaraq Amerika dövləti yararlansın. Çin Elmlər Akademiyası son illər innovativ layihələrdə dünyada nə üçün birinci olmağı hədəfləmişdir? Əlbəttə, Çinin qədimdən gələn "Dao"su üçün – "Çinin Böyük İnkişaf Yolu" üçün!

Qonşumuz Rusiyada elmi fəaliyyət bütün sferalarda dövlətin və cəmiyyətin daha qüdrətli olmasına xidmət etmirmi? Moskva dünyanı əldə etdiyi elmi nəticələrin tətbiqi sayəsində yaratdığı texnoloji imkanlarla hədələmirmi? Və yaxud Rusiyadan öncə, ABŞ və Avropa dünyaya kosmik tədqiqatları, orijinal sosio-humanitar nəzəriyyələri hesabına meydan oxumurlarmı?

Başqa bir qonşumuz İran elmi tədqiqatlar nəticəsində müxtəlif yeni silahlar istehsalı və nüvə silahı istehsalı potensialı ilə öyünmürmü? İranda hansı alim bunun yanlış olduğunu deyir və mücərrəd "azad tədqiqat"dan danışır? Bəlkə, yeni texnologiyalar məkanlarından biri olan İsraildə yalnız mücərrəd elmi axtarışlar vardır? Orada elmi fəaliyyət dövlətin maraqlarına xidmət etmirmi?

Nəhayət, qonşu və qardaş Türkiyə yalnız elmi-texnoloji sahədə sıçrayış xarakterli tədqiqatlara görə dünyada söz sahiblərindən biri olmuşdur! Bunun məhz elmi inkişafla əlaqəli olduğunu Səlcuq Bayraqdara Amerikada təhsil verən universitetin aparıcı alimləri də deyirlər. Onlardan biri "təəssüf edir" ki, S.Bayraqdara elm öyrətmişlər! Baxın, nə dərəcədə dövlətiləşmiş, siyasiləşmiş mövqedir və adam özünə görə haqlıdır!

Bütün bunları Azərbaycanda elmə bağlı olan hər kəsin aksiom kimi qəbul etdiyinə tam əminəm. Hər kəs deyir ki, "elə də olmalıdır". Lakin psixoloji olaraq hansı səbəblərdən "Azərbaycanda elmi fəaliyyət dövlətə bağlı deyil, azad olmalıdır" cəfəngiyyatından dəm vurulur, mənə aydın deyildir. Dünyanın hər ölkəsi üçün normal qəbul edilən təbii bir proses Azərbaycana gələndə məzmunsuz və mücərrəd "elm və təhsil ideologiyasız olmalıdır" kimi zərərli tezis formasını alır! Qətiyyən elə deyil: indi Azərbaycanda elm və təhsil dünyanın istənilən ölkəsindən də çox dövlətə, onun strateji inkişafına, müstəqilliyinə və güclü intellektual cəmiyyət quruculuğuna xidmət etməlidir. Buna tamamilə və qeyd-şərtsiz əminəm! Səbəbləri haqqında bir qədər sonra.

Və AMEA prezidentinin fəallığının bu məqamda nə dərəcədə əhəmiyyətli olduğunu bir daha düşünməli və onun şəxsində bütün akademiyada yenilikçilərə geniş dəstək verməliyik! Bu, bizim alim və vətəndaş kimi özünü təsdiqimizdir, müasir dövrün insanı kimi taleyimiz və müstəqil dövlətçilik qarşısında borcumuzdur. Əsas isə dövlət başçısının, xalqın və övladların qarşısında məsuliyyətimizdir!

Nümunə kimi gördüyümüz Qərbin elmi dairələri də ictimai, etik və sosial məsuliyyət məsələsini ön plana çəkirlər. Məsələnin bu tərəfi həm AMEA-nın yeniləşmə strategiyası, həm də fərd olaraq tədqiqatçının məsuliyyəti baxımından xüsusi araşdırılmalıdır!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Gürcü mətbuatı Ulu öndər haqqında

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin 101 illiyi ilə əlaqədar Gürcüstanın "Sakartvelos Respublika" qəzetində "Heydər Əliyev: Gürcüstan və Azərbaycan xalqlarının dostluğu dünyaya nümunədir" sərlövhəli məqalə dərc olunub. Məqalə Tbilisidə fəaliyyət göstərən "Alyans Gənclər Mərkəzi"nin "Milli-mənəvi irsimizin təbliği" layihəsi çərçivəsində işıq üzü görüb.**



Yazıda Azərbaycan–Gürcüstan dostluğunun tarixinə nəzər salınır, ulu öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində müstəqillik dövründə əlaqələrimizin daha da möhkəmləndiyi və inkişaf etdiyi qeyd olunur. Müəllif bildirir ki, gürcülərlə azərbaycanlılar arasında heç vaxt münaqişə, mübahisə, narazılıq olmayıb, bu, xalqlarımızın ən böyük nailiyyətlərindəndir. Fenomen şəxsiyyət, gürcü xalqının da yaxın dostu olan Heydər Əliyevin də dediyi kimi, Gürcüstan və Azərbaycan xalqları arasında dostluq dünyada nümunədir.

Qlobal neft, qaz, nəqliyyat layihələrinin əhəmiyyətindən də söz açılan məqalədə bildirilir ki, bu layihələrin reallaşması ölkələrimiz arasında qarşılıqlı anlaşmanın və səmimi əməkdaşlığın bəhrəsidir. Qeyd edilir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən mühüm siyasi xətt bütün konturları ilə Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsinə, əbədi və sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövlətinin öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirməsi Heydər Əliyev siyasətinin ən parlaq təntənəsidir.

"Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan heç zaman olmadığı qədər güclü və qüdrətlidir. Müasir müstəqil, qalib Azərbaycan ümummilli lider Heydər Əliyevin görmək istədiyi Azərbaycandır", – deyə məqalədə vurğulanır.

***XQ***

# Naxçıvan xəbərləri

### 1,3 milyon manat "ƏDV geri al!"



***Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) tərəfindən yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi istiqamətində işlər davam etdirilir.***

DVX-nin məlumatına əsasən, cari il mayın 1-dək muxtar respublika ərazisində quraşdırılmış yeni nəsil nəzarət-kassa aparatlarının sayı 3329 ədəd olub. Yanvar–aprel ayları ərzində belə aparatlar vasitəsilə qeydə alınan dövriyyə 122,4 milyon manat təşkil edib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 79,5 milyon manat və ya 2,9 dəfə çoxdur.

İndiyədək muxtar respublikada "ƏDV geri al" layihəsi çərçivəsində istehlakçılara 1,3 milyon manat ƏDV məbləği geri qaytarılıb. Cari ilin 4 ayında istehlakçılara qaytarılan məbləğ ötən ilin müvafiq dövrünə nisbətən 2,8 dəfə artaraq 439,7 min manat olub.



### Sosial-iqtisadi Yol Xəritəsi hazırdır

***Mayın 14-də Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" üzrə əlaqələndirmə qrupunun 2024-cü il üçün Yol Xəritəsi təqdim olunacaq.***

Əlaqələndirmə qrupunun bununla bağlı keçirilən toplantısında Dövlət Proqramının icrası çərçivəsində yeni layihələrin və təkliflərin komissiyanın aidiyyəti işçi qruplarının iclaslarında müzakirəyə çıxarılması və özəl sektor tərəfindən həmin layihələrə dəstəkləyici tövsiyələrin təqdim olunması mexanizminin təqdimatının keçirilməsi nəzərdə tutulur.

İclasda, həmçinin Dövlət Proqramı üzrə monitorinq və qiymətləndirmə sahəsində görülən işlər barədə fikir mübadiləsi aparılacaq.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Azərbaycan Respublikası Prezidentinin**
**2024-cü il 13 may tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 5.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin (bundan sonra – Reyestr) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını, o cümlədən Reyestrin aparılması qaydasını və həmin Reyestrə daxil edilməli olan məlumatların siyahısını müəyyən edir.

1.2. Reyestr “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinə əsasən mikro, kiçik və orta sahibkarlıq subyektləri kateqoriyasına aid edilən kommersiya hüquqi şəxslərinin və fərdi sahibkarların (bundan sonra – KOB subyekti) özləri barədə, eləcə də onlara dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlər və dəstək tədbirləri, habelə onların fəaliyyətinin qiymətləndirilmə nəticələri barədə informasiya təminatını həyata keçirmək məqsədilə formalaşdırılan dövlət informasiya ehtiyatıdır.

1.3. Reyestrdə yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.4. Reyestrin formalaşdırılması, aparılması, arxivləşdirilməsi və digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə daxil edilməsi, habelə məlumat mübadiləsinin təşkili ilə bağlı bu Əsasnamə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na (bundan sonra – Qaydalar) uyğun olaraq həyata keçirilir.

1.5. Reyestr ilə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsinin aparılması Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə həyata keçirilir.

1.6. Reyestrdə toplanılmış fərdi məlumatların işlənilməsinin məqsədi KOB subyektləri tərəfindən özləri barədə, onlara göstərilən dəstək tədbirləri və dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlər barədə elektron məlumatların vahid informasiya resursu vasitəsilə bir mənbədən əldə edilməsidir. Fərdi məlumatların Reyestrdə toplanılması, işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

1.7. Reyestrin sahibi və operatoru Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir (bundan sonra – sahib).

1.8. Bu Əsasnamədə nəzərdə tutulmuş elektron məlumatların əldə edilməsinə görə ödəniş tələb olunmur.

1.9. Reyestrin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər sahibin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**2. Əsas anlayışlar**

2.1. Bu Əsasnamədə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. istifadəçi – bu Əsasnamənin 4.4-cü və 5.1-ci bəndlərində göstərilən məlumatlardan istifadə edən KOB subyekti;

2.1.2. iştirakçı — Reyestrin informasiya proseslərində iştirak edən dövlət orqanları (qurumları), eləcə də mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar;

2.1.3. elektron kabinet – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 avqust tarixli 1415 nömrəli Fərmanı ilə təsdiq edilmiş “e-KOB evi” portalı haqqında” Əsasnamə”nin 1.6.2-ci yarımbəndinə uyğun müəyyən edilmiş KOB subyektinə məxsus fərdi elektron səhifə.

2.2. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar Qaydalarda nəzərdə tutulmuş mənaları ifadə edir.

**3. Reyestrin fəaliyyət prinsipləri**

3.1. Reyestr Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

3.1.1. şəffaflıq – Reyestrin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu;

3.1.2. istifadə rahatlığı – məlumat mübadiləsinin, eləcə də istifadəçilərin Reyestrdən istifadəsinin rahat və əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.3. nəticəyönümlü fəaliyyət – Reyestrin fəaliyyəti zamanı qarşıya qoyulmuş məqsədlərin uğurlu icrasına və arzuolunan nəticələrin əldə edilməsinə yönəlmiş idarəetmə strategiyasının təmin olunması;

3.1.4. operativlik – xidmətlər göstərilməsinin, informasiyanın əldə olunması və mübadiləsinin avtomatlaşdırılmış qaydada sürətli həyata keçirilməsi.

**4. Reyestrin texniki-texnoloji infrastrukturu**

4.1. Reyestrin texniki-texnoloji infrastrukturu və strukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

4.1.1. texniki avadanlıq və proqram təminatı;

4.1.2. telekommunikasiya qurğuları və kanalları;

4.1.3. elektron kabinet;

4.1.4. informasiya ehtiyatı və onu idarəetmə paneli;

4.1.5. sistemin test mühiti;

4.1.6. “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlər və dəstək tədbirləri” məlumat bölməsi.

4.2. Reyestrin texniki avadanlığı və proqram təminatı, telekommunikasiya qurğuları və kanalları istifadəçilərin bu Əsasnamənin 1.2-ci bəndində qeyd edilən elektron məlumatlar toplusundan istifadəsini, Reyestrdə məlumat mübadiləsinin aparılmasını və həmin məlumatların mühafizəsini, habelə Reyestrin fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini təmin edir.

4.3. Elektron kabinet vasitəsilə hər bir KOB subyekti bu Əsasnamənin 4.4-cü və 5.1-ci bəndlərində göstərilən məlumatlarla tanış olmaq və bu məlumatların iştirakçılar və digər istifadəçilər tərəfindən əldə edilməsinə razılıq (hər bir hal üzrə ayrıca) vermək və ya razılıq verilməsindən imtina etmək, bu Əsasnamənin 10.1.2-ci yarımbəndi nəzərə alınmaqla onları əldə etmək, həmçinin sahib və iştirakçı ilə qarşılıqlı əlaqə saxlamaq imkanına malikdir.

4.4. “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlər və dəstək tədbirləri” məlumat bölməsi dövlət orqanları (qurumları) və KOB subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar tərəfindən KOB subyektlərinə göstərilən xidmətlərin və dəstək tədbirlərinin siyahısını özündə əks etdirir.

4.5. Fəaliyyətinin dayanıqlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Reyestr və Reyestrdə toplanılan məlumatlar, o cümlədən onların ehtiyat nüsxələri “Hökumət buludu”nda saxlanılır.

4.6. İdarəetmə paneli Reyestrin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

4.7. Reyestrdə aparılan dəyişikliklərin yoxlanılması test mühitində həyata keçirilir.

**5. Reyestrə daxil edilən və ötürülən məlumatlar**

5.1. EHİS vasitəsilə Reyestrə ötürülən KOB subyektləri haqqında məlumatlar aşağıdakılardır:

5.1.1. hüquqi şəxsin adı, fərdi sahibkarın soyadı, adı və atasının adı, qanuni təmsilçinin (təmsilçilərin) soyadı, adı və atasının adı;

5.1.2. hüquqi şəxsin hüquqi ünvanı, fərdi sahibkarın yaşayış ünvanı;

5.1.3. KOB subyektinin eyniləşdirmə nömrəsi (VÖEN);

5.1.4. KOB subyektinin dövlət qeydiyyatına dair dövlət reyestrindəki məlumatlar;

5.1.5. KOB subyektinin əlaqə vasitələri;

5.1.6. KOB subyektinin meyarlara görə bölgüsü (mikro, kiçik, yaxud orta sahibkarlıq subyekti);

5.1.7. KOB subyektinə verilmiş lisenziyalar və icazələr haqqında məlumatlar;

5.1.8. KOB subyektinin fəaliyyət sahəsi;

5.1.9. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq KOB subyektində keçirilmiş yoxlamalar (monitorinqlər) barədə məlumat (yoxlamanı aparan orqan, plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar) yoxlamalar və həmin yoxlamaların nəticəsi, tətbiq edilmiş məhdudiyyət tədbirləri (olduqda) haqqında məlumatlar);

5.1.10. KOB subyektinə dəstək göstərmiş dövlət orqanının (qurumunun) və ya mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumun, habelə xarici dövlətin və beynəlxalq təşkilatın adı, göstərilmiş dəstəyin növü, forması, məzmunu, məbləği (olduğu təqdirdə), müddəti və tarixi;

5.1.11. Qanunun 7.2-ci maddəsində nəzərdə tutulmuş qaydada dövlət orqanları (qurumları) tərəfindən həyata keçirilən qiymətləndirmənin, habelə mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar tərəfindən KOB subyektlərinə dəstək göstərilməsinə dair qiymətləndirmənin nəticələri barədə məlumatlar;

5.1.12. KOB subyektinin fəaliyyəti ilə bağlı digər məlumatlar (riskli vergi ödəyicisi olması barədə və s.).

5.2. Dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarının və sistemlərinin Reyestrə inteqrasiyası və məlumat mübadiləsinin təşkili, Qaydalara uyğun olaraq, EHİS vasitəsilə həyata keçirilir.

5.3. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan dövlət orqanları (qurumları) və mikro, kiçik və orta sahibkarlığa dəstək infrastrukturunu təşkil edən qurumlar bu Əsasnamənin 5.1-ci bəndində göstərilən məlumatları, həmçinin bu məlumatlarda dəyişiklik edildiyi təqdirdə, müvafiq məlumatları 30 (otuz) təqvim günündən gec olmayaraq Reyestrə daxil edilməsi məqsədilə sahibə təqdim edirlər.

5.4. Reyestrlə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) dövlət orqanları (qurumları) və mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturunu təşkil edən qurumlar tərəfindən Reyestrə daxil edilməsi məqsədilə sahibə təqdim edilir.

**6. Reyestrdən istifadə qaydaları**

6.1. Bu Əsasnamənin 5.1-ci bəndində qeyd edilən məlumatlar istifadəçinin elektron kabineti üzərindən onun sorğusu əsasında Reyestr tərəfindən real vaxt rejimində istifadəçilərin elektron kabinetlərində yerləşdirilir.

6.2. Reyestrdən istifadə etmək üçün istifadəçi:

6.2.1. elektron kabinetə giriş edir;

6.2.2. elektron kabinet vasitəsilə bu Əsasnamənin 5.1-ci bəndində qeyd edilən məlumatlarla sorğu əsasında tanış olur, həmin məlumatların gücləndirilmiş elektron imza ilə imzalanmış nüsxələrini əldə edir və onların iştirakçılar və digər istifadəçilər tərəfindən əldə edilməsinə razılıq (hər bir hal üzrə ayrıca) verir və ya razılıq verilməsindən imtina edir;

6.2.3. Reyestrdə olan məlumatlarla razılaşmadıqda sahibə elektron kabineti vasitəsilə məlumat verir, özü haqqında toplanılmış məlumatlarda dəyişiklik edilməsi barədə məlumatları təqdim etmiş dövlət orqanlarına (qurumlarına) və ya mikro, kiçik və orta sahibkarlığa dəstək infrastrukturunu təşkil edən qurumlara müraciətlər və sorğular göndərir, həmin müraciətlərin və sorğuların qeydiyyatını, icrasını və onlara baxılmanın nəticələrini izləyir.

6.3. İstifadəçi tərəfindən iştirakçılara göndərilmiş müraciətlər və sorğular Reyestr tərəfindən iştirakçıların elektron kabinetində yerləşdirilir. İstifadəçilərin müraciətləri və sorğuları aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınır və sözügedən Qanunla müəyyən edilmiş müddətlərdə cavablandırılır.

6.4. Sahib istifadəçinin Reyestrdəki məlumatları əldə etmək hüququnu aşağıdakı hallarda məhdudlaşdırır:

6.4.1. Reyestrə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə;

6.4.2. bu Əsasnamə ilə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə.

**7. Reyestrin funksionallığına dair tələblər**

7.1. Reyestr vasitəsilə aşağıdakılar təmin edilir:

7.1.1. bu Əsasnamənin 5.1-ci bəndində qeyd edilən məlumatların Reyestrdə toplanılması, emalı, axtarışı, təhlili və ötürülməsi;

7.1.2. Reyestrdən eyni zamanda çoxsaylı istifadəçilərin istifadə etməsi;

7.1.3. Reyestrə daxil edilən məlumatların dəqiqliyi, tamlığı, aktuallığı və etibarlılığı;

7.1.4. Reyestrin fasiləsiz fəaliyyəti;

7.1.5. Reyestrin təhlükəsizliyi və məlumatların mühafizəsi;

7.1.6. məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması;

7.1.7. informasiya mübadiləsində bir-biri ilə uzlaşa bilən texnologiyaların və proqram-texniki vasitələrin tətbiqi;

7.1.8. statistik məlumatların emalında intellektual idarəetmədən istifadə olunması.

**8. Sahibin hüquqları və vəzifələri**

8.1. Reyestrin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

8.1.1. Reyestrin fəaliyyəti ilə bağlı təhlillər aparmaq, icmallar və analitik materiallar hazırlamaq;

8.1.2. Reyestrin fəaliyyətini təmin etmək üçün müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək.

8.2. Reyestrin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı vəzifələri vardır:

8.2.1. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi, vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Reyestrə daxil etmək;

8.2.2. fərdi məlumatların Reyestrdə toplanılmasını, işlənilməsini və mühafizəsini “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirmək;

8.2.3. qanunsuz daxilolma və saxtalaşdırma hallarının qarşısını almaq, giriş və əməliyyat tarixçələrini (loqları) saxlamaq;

8.2.4. Reyestrin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi üzrə işləri Qaydalarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

8.2.5. Reyestrin fəaliyyəti prosesində hər hansı bir qəza (xəta) baş verdiyi və ya Reyestrin fəaliyyətində fasilə yarandığı halda baş verən xətaların qeydiyyatının aparılmasını təmin etmək, Reyestrin iştirakçılarını və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyini (bundan sonra – əlaqələndirici qurum) bu barədə məlumatlandırmaq, dərhal onların aradan qaldırılması üçün müvafiq tədbirlər görmək və Reyestrin “Hökumət buludu”nda saxlanılan nüsxələrinin fəaliyyətə başlaması ilə bağlı əlaqələndirici quruma müraciət etmək;

8.2.6. Reyestrin “Hökumət buludu”nda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini təmin etmək üçün “Hökumət buludu”nun operatoru ilə birlikdə zəruri tədbirlər görmək;

8.2.7. Reyestrdə dəyişiklikləri müvafiq qeydlər edilməklə aparmaq, belə qeydlər edilməsinə əsas olan sənədləri müvafiq sənədlər qovluğuna daxil etmək;

8.2.8. arxivləşdirməyə hazırlığın (arxiv qeydi aparılmaqla) avtomatlaşdırılmış qaydada həyata keçirilməsini təmin etmək;

8.2.9. Reyestrə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşları arasında iş və vəzifə bölgüsünü müəyyən etmək və həmin əməkdaşları bu barədə məlumatlandırmaq;

8.2.10. Reyestrin mütəmadi monitorinqini, auditini, o cümlədən elektron auditini həyata keçirmək;

8.2.11. Reyestrin fəaliyyəti ilə bağlı təhlükəsizlik qaydalarının hazırlanmasını, onun fəaliyyətinə təsir edən amillərin təhlil edilməsini və ehtiyat planının hazırlanmasını təmin etmək;

8.2.12. riskləri təhlil etmək, habelə risklərin idarə edilməsi, böhran və bərpa planlarının hazırlanmasını həyata keçirmək;

8.2.13. əlaqələndirici qurumla birlikdə Reyestrdən birgə və səmərəli istifadə imkanlarının artırılması məqsədilə texniki və təkmilləşdirici tədbirlər həyata keçirmək;

8.2.14. istifadəçilərin Reyestrdə özləri haqqında toplanılan məlumatlar və həmin məlumatlardan istifadə barədə məlumatla (qanunla müəyyən edilən hallar istisna olmaqla) tanış olması, habelə qeyd edilən məlumatlarda elektron kabinetləri vasitəsilə dəyişiklik edilməsi üçün bu Əsasnamə ilə müəyyən edilmiş qaydada müvafiq imkan yaratmaq;

8.2.15. Reyestrdən istifadəni (o cümlədən informasiyanın axtarılmasını və sorğu ilə əldə edilməsini) bu Əsasnamə ilə müəyyən edilmiş qaydada təmin etmək, eləcə də istifadəçilərin elektron kabinet vasitəsilə dövlət orqanlarına (qurumlarına) və mikro, kiçik və orta sahibkarlığa dəstək infrastrukturunu təşkil edən qurumlara müraciət etməsini və sorğular göndərməsini təmin etmək, həmin müraciətlərin və sorğuların cavablandırılmasını izləmək;

8.2.16. əldə olunması qanunla məhdudlaşdırılan məlumatlardan yalnız “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə istifadə etmək;

8.2.17. Reyestrin mühafizəsi ilə bağlı zəruri təşkilati və texniki tədbirlər görülməsini təşkil etmək;

8.2.18. Reyestrdə məlumatların toplanılması, işlənilməsi, sorğuların verilməsi və icrası, müraciətlərin qeydiyyatı və onlara baxılmanın nəticələri, habelə Reyestrin idarə olunması və mühafizəsi ilə bağlı əməliyyat tarixçələrinin elektron nəzarət-audit jurnallarında toplanılmasını (hesabatlılığını) təmin etmək;

8.2.19. Reyestrdə aparılan təmir və yenilənmə işləri haqqında istifadəçiləri və əlaqələndirici qurumu əvvəlcədən məlumatlandırmaq.

**9. İştirakçıların hüquqları və vəzifələri**

9.1. İştirakçıların aşağıdakı hüquqları vardır:

9.1.1. Reyestrin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı sahibə təkliflər vermək;

9.1.2. Reyestrin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə sorğular vermək və belə məlumatları (sənədləri) almaq;

9.1.3 istifadəçinin Reyestrdəki məlumatlarını onun razılığı (hər bir hal üzrə ayrıca) əsasında elektron kabinet vasitəsilə əldə etmək.

9.2. İştirakçıların aşağıdakı vəzifələri vardır:

9.2.1. Reyestrə ötürülən məlumatların tamlığını, etibarlılığını, təhrifolunmazlığını və konfidensiallığını təmin etmək;

9.2.2. Reyestrdəki məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

9.2.3. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

9.2.4. Reyestrin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

9.2.5. bu Əsasnamənin 5.1-ci bəndində müəyyən edilmiş məlumatları, Qaydalara uyğun olaraq, Reyestrə EHİS vasitəsilə inteqrasiya etmək və bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

9.2.6. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və əlaqələndirici quruma məlumat vermək;

9.2.7. sahibin sorğularını vaxtında və tam cavablandırmaq, habelə qeyd olunan sorğular əsasında zəruri məlumatları (sənədləri) ona təqdim etmək;

9.2.8. aidiyyəti dövlət orqanlarının (qurumlarının) Reyestrin fəaliyyəti ilə bağlı sorğularını, istifadəçilərin Reyestr vasitəsilə edilən müraciətlərini və göndərilən sorğularını cavablandırmaq.

**10. İstifadəçilərin hüquqları və vəzifələri**

10.1. İstifadəçilərin aşağıdakı hüquqları vardır:

10.1.1. elektron kabinet vasitəsilə bu Əsasnamənin 5.1-ci bəndində qeyd edilən məlumatlardan sorğu əsasında sərbəst və maneəsiz istifadə etmək;

10.1.2. elektron kabinet vasitəsilə yalnız ona aid olan məlumatları əldə etmək;

10.1.3. Reyestrdə olan məlumatlarla razılaşmadıqda, sahibə elektron kabinet vasitəsilə məlumat vermək, özləri haqqında toplanılmış məlumatlarda dəyişiklik edilməsi barədə məlumatları təqdim etmiş dövlət orqanlarına (qurumlarına) və ya mikro, kiçik və orta sahibkarlığa dəstək infrastrukturunu təşkil edən qurumlara müraciətlər və sorğular göndərmək, müraciətlərin və sorğuların icrasını izləmək, həmin müraciətlərə və sorğulara dair cavablar almaq;

10.1.4. Reyestrdə saxlanılan məlumatlarda aşkarlanmış səhvlərin aradan qaldırılması üçün sahibə məlumat vermək;

10.1.5. Reyestrin fəaliyyətinin təkmilləşdirilməsinə dair sahibə təkliflər vermək;

10.1.6. Reyestrdə özü haqqında toplanılan məlumatları sorğu əsasında digər istifadəçilərin və iştirakçıların əldə etməsinə elektron kabinet vasitəsilə razılıq (hər bir hal üzrə ayrıca) vermək;

10.1.7. Reyestrdə digər istifadəçilər haqqında toplanılan məlumatları sorğu əsasında həmin istifadəçinin razılığı ilə elektron kabinet vasitəsilə əldə etmək.

10.2. İstifadəçilərin aşağıdakı vəzifələri vardır:

10.2.1. Reyestrə qeyri-qanuni daxil olmamaq, onun fəaliyyətinə müdaxilə etməmək;

10.2.2. Reyestrin fəaliyyətini ləngidən, ona zərər vuran və ya onun fəaliyyətinin dayanmasına səbəb ola bilən hərəkətlərə yol verməmək;

10.2.3. sahibin bu Əsasnamə ilə müəyyən edilmiş məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğularını cavablandırmaq və həmin məlumatları ona təqdim etmək.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 248** **Bakı şəhəri, 7 may 2024-cü il**

***“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1969 (Cild I); 2024, № 1, maddə 77; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 16-cı hissədə “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqə” sözü ilə əvəz edilsin;

1.2. 20-ci hissədə “nəqlinə” sözü “ötürülməsinə” sözü ilə əvəz edilsin;

1.3. 36-cı hissədən “məhsulların, o cümlədən” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 636 (Cild I); 2024, № 1, maddə 75) ilə təsdiq edilmiş “Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı”nın 2.17-ci bəndində “qeydiyyat vəsiqəsi” sözləri “vəsiqə” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# "Şahdəniz": Dənizdə şahanə qaz yatağı

*Bu ilin ilk rübündə buradan 7 milyard kubmetr qaz və 1 milyon ton kondensat çıxarılıb*



**Azərbaycanı dünyanın potensial qaz ölkəsinə çevirən "Şahdəniz" yatağının ehtiyatlarının işlənməsi uğurla davam etdirilir. "BP-Azərbaycan" şirkətinin məlumatına görə, 2024-cü ilin yanvar-mart aylarında "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə 719 milyon dollar, əsaslı məsrəflərinə isə 201 milyon dollar xərclənib. Həmin vəsaitin isə böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz-2" layihəsinə sərf olunub.**

Məlumatda bildirilir ki, cari ilin ilk rübü ərzində qazın "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib.

Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən "Şahdəniz" yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Hazırda həmin qurğuların gündəlik hasilat gücü təxminən 79,5 milyon (ildə 29 milyard kubmetr) kubmetr təşkil edir. Bu ilin birinci rübündə "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" adlı platformalardan, ümumilikdə, təqribən 7 milyard kubmetr qaz və 1 milyon ton kondensat çıxarılıb.

Məlum olduğu kimi, layihə səhmdarlarının yekdil qərarına əsasən, "Şahdəniz" yatağının bir neçə mərhələdə işlənməsi qərara alınıb. Xatırladaq ki, birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, hasilata isə 2006-cı ilin sonlarında başlanılıb.

Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından seçilir. Belə ki, hazırda "Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrasrukturdur. Təxminən, 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin (CQBK) genişləndirilməsi daxildir.

"Şahdəniz" yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı "SDC03Z" quyusunun istismara verilməsi ilə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə isə "Şahdəniz-2" layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını da işlənməyə daxil ediblər.

2024-cü ilin birinci rübünü də layihə üçün uğurlu hesab etmək olar. Belə ki, fevralın 13-də bütün əlaqədar tikinti işləri və istismar sınaqları uğurla başa çatdırıldıqdan sonra yatağın şərq-şimal cinahından hasilata başlanıb. Bununla da, "Şahdəniz-2" layihəsinə daxil olan beş sualtı işlənmə cinahının əhatə etdiyi bütün sualtı infrastrukturun – boru kəmərləri, hasilat manifoldları, sualtı elastik kabellər və birbaşa elektrik isitmə sisteminin təhvili uğurla başa çatdırılıb.

İlin əvvəlindən etibarən "Xankəndi" sualtı tikinti gəmisi ilə layihə çərçivəsində göstərilən xidmətlərin həcmi xeyli genişləndirilib. Hesabat dövründə sözügedən dəniz nəqliyyatı vasitəsilə layihənin quraşdırma və istismaravermə işləri ilə yanaşı, yatağın işlənməsinə dair daimi fəaliyyətlərə də dəstək verilməyə başlanıb. Bura hazırda istismarda olan "Şahdəniz-2" sualtı hasilat obyektlərində aparılan bütün xidmətlər, tədqiqatlar və müdaxilə işləri daxildir.

Cari ilin yanvar-mart aylarında konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Rüb ərzində "Şahdəniz Alfa" platformasının qazma qurğusunda profilaktik işlər aparıldığından burada quyu qazılmayıb. Bununla belə, "İstiqlal" və Heydər Əliyev qazma qurğuları vasitəsilə "Şahdəniz-2" layihəsi çərçivəsində quyular üzrə işlər davam etdirilib. Bura yatağın şərq-şimal cinahında SDH03 quyusunun tamamlama işləri və qərb cinahında SDD05 quyusunun qazma işlərinin başlanması daxildir. Ümumilikdə, ötən müddətdə "Şahdəniz-2" layihəsi çərçivəsində 21 quyu qazılaraq istismara verilib. Həmin quyuların 5-i yatağın şimal, 4-ü qərb, 4-ü şərq-cənub, 5-i qərb-cənub, 3-ü isə şərq-şimal cinahlarında qazılıb.

Bu ilin birinci rübündə "Şahdəniz" müqavilə sahəsində hazırda istismarda olan məhsuldar layların altındakı daha dərin horizontları qiymətləndirmək məqsədilə qazılmış SDX-8 kəşfiyyat quyusundan əldə olunmuş məlumatların təhlili davam etdirilib. Qeyd edək ki, sözügedən quyunun qazılmasına 2023-cü il yanvarın 20-də Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə başlanılıb. İlin son ayında quyu 7 min metrlik layihə dərinliyinə çatdırıldıqdan sonra təhlükəsiz şəkildə müvəqqəti olaraq bağlanıb.

Xatırladaq ki, "Şahdəniz" layihəsinin iştirakçıları BP (operator – 29,99 faiz), Cənub Qaz Dəhlizi (21,02 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz) NİKO (10 faiz) şirkətləridir.

"Şahdəniz" yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Terminaldakı mövcud qurğular isə qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə (CQBK) ötürür. Yeri gəlmişkən bu ilin ilk rüb ərzində terminaldan gündəlik orta hesabla, təxminən 75 milyon kubmetr "Şahdəniz" qazı ixrac olunub. Hesabat dövründə boru kəmərinin səmərəli idarə edilməsi məqsədilə yaradılmış şirkətin səhmdarları tərəfindən CQBK-nin əməliyyat tədbirlərinə təqribən 17,3 milyon dollar, əsaslı məsrəflərinə isə 1,2 milyon dollar xərclənib.

Qeyd edək ki, 2006-cı ilin sonlarında istismara verilimiş Cənubi Qafqaz boru kəməri "Şahdəniz" qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb. 2024-cü ilin ilk rübü ərzində CQBK-nin ixrac üçün gündəlik orta ötürücülük gücü 61,7 milyon kubmetr təşkil edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Şərqi Zəngəzurun dirçəlişinə 4 milyard manat yatırılıb



**Dövlət Statistika Komitəsindən bildirilib ki, işğaldan azad edilən Şərqi Zəngəzurun iqtisadiyyatına 2023-cü ildə investisiya qoyuluşu 3 milyard 955 milyon manat təşkil edib. Həmin sərmayənin 3 milyard 749 milyon manatı tikinti və quraşdırma layihələrinə yönəldilib.**

İqtisadi rayona ən çox investisiya 1 milyard 564 milyon manat olmaqla Kəlbəcər rayonuna yatırılıb.

## Qubadlının 2 kəndi yenidən qurulur

**Cəbrayıl, Qubadlı və Zəngilanda Bərpa, Tikinti və İdarəetmə Xidmətindən aldığımız məlumata görə, hər iki kəndin baş planına əsasən, torpaq işləri başa çatdırılıb, evlərin bünövrəsi qazılıb və beton işlərinin görülməsinə başlanılıb.**



Məlumatda bildirilir ki, Qubadlı rayonunun Mahruzlu kəndi rayon mərkəzindən 19 kilometr məsafədə yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Birinci mərhələdə 40,27 hektar ərazidə 190 evin tikilməsi və 836 nəfərin məskunlaşması planlaşdırılır. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, bazar kompleksi, idman-sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı və çayxana da nəzərdə tutulub.

Qeyd edilib ki, Qubadlıda Zilanlı kəndinin də tikintisinə başlanılıb. Bu yaşayış məntəqəsi rayon mərkəzindən 20 kilometr məsafədə yerləşir və onun ümumi ərazisi 180,04 hektar təşkil edir. Birinci mərhələdə 43,5 hektar ərazidə 193 evin tikintisi və 926 nəfərin məskunlaşması nəzərdə tutulur. Bu kənddə də məktəb binası, uşaq bağçası, ailə-sağlamlıq mərkəzi, inzibati bina, klub-icma və idman mərkəzinin yaradılması planlaşdırılır.

Hər iki kənddə tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Birinci mərhələ üzrə nəzərdə tutulan inşaat işləri isə cari ilin sonunadək yekunlaşdırılacaq və ilk köç məskunlaşdırılacaq.

***XQ***

## Astara terminalı genişləndirilir

**"Azərbaycan Dəmir Yolları" (ADY) QSC-nin sədrinin müşaviri Emil Məmmədov bildirib ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas hissəsi sayılan Astara terminalında genişləndirmə işlərinin cari ilin sonuna qədər yekunlaşdırılması gözlənilir.**



Onun sözlərinə görə, 2017-ci ildə tikintisinə başlanılan bu infrastruktur Rusiya, Belarus və İran üzərindən tranzit yük həcmlərinin cəlbinə imkan yaradacaq.

E. Məmmədov qeyd edib ki, 2023-cü ildə Astara terminalına 800 min tona qədər yük cəlb edilib. Tikintisi tamamlandıqdan sonra infrastrukturun yükaşırma gücünün illik 4 milyon tona çatdırılacağı nəzərdə tutulub.

Xatırladaq ki, terminal İranın Astara şəhərində 35 hektar ərazidə, Azərbaycan-İran sərhədindən 1,4 kilometr aralıqda yerləşir. Tikintisi ADY tərəfindən aparılan terminalın ərazisi 25 il müddətinə Azərbaycana icarəyə verilib. Astara terminalında yükaşırma əməliyyatları 2018-ci ildən həyata keçirilir və 2022-ci ilin sentyabr ayından ADY-nin törəmə şirkəti olan "Astara Terminal" MMC tərəfindən aparılır.

Astara çayı üzərindəki körpüdən terminal ərazisinə qədər 1,4 kilometr uzunluğunda dəmir yolu xəttinin və onun mühafizə zolağının hasarlanmasının, terminal daxilində 8,7 kilometr uzunluğunda dəmir yolu xəttinin, ikiaşırımlı Bağçasaray körpüsünün, 5 suötürücü qanovun tikintisi tamamlanıb.

## 4 ayda 21 milyard manatlıq sənaye məhsulu

**Cari ilin yanvar–aprel aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 21,1 milyard manatlıq sənaye məhsulu istehsal edilib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 0,2 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 8,7 faiz yüksəlib. Sənaye məhsulunun 64,6 faizi mədənçıxarma, 29,3 faizi emal, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı sektorlarında istehsal olunub.

***XQ***

# Sığorta etibarlı iqtisadi-sosial himayədir

*Birinci rübdə 153,4 milyon manatlıq ödəniş verilib*

**Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, cari ilin birinci rübündə respublikada 17 sığorta şirkətinin xətti ilə 373 milyon manat (ötən ilin eyni dövrünə nisbətən 7,6 faiz çox) sığorta haqqı toplanılıb. Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 153,4 milyon manata (illik müqayisədə 49,9 faiz çox) yüksəlib. Bu müddətdə sığorta bazarında toplanan hər 100 manat sığorta haqqının 41,1 manatı (2023-cü ilin müvafiq dövründə bu göstərici 29,5 manat olub) ödəniş edilib.**




Sığorta bazarında qarşıdakı dövrdə də müsbət göstəricilərin qeydə alınacağı, 2020-ci ildən gerçəkləşdirilən, perspektivdə də bir tendensiya kimi davam etdirilən böyümə trendinin 2024-cü ildə də müşahidə olunacağı əminliklə proqnozlaşdırılır. Çünki Mərkəzi Bank, Azərbaycan Sığortaçılar Assosiasiyası (ASA) və sığorta bazarının iştirakçıları tərəfindən sektorun inkişafına hesablanan hədəflərə doğru sistemli addımlar atılır.

ASA-dan bildirildiyinə görə, yerli sığorta bazarı artıq bir ildir ki, davamlı böyümə və dayanıqlı inkişaf tempini qoruyub saxlayır. Ötən il sığorta yığımlarının ilk dəfə olaraq 1 milyard 20 milyon manata (2022-ci ilin analoji dövrü ilə müqayisədə, təqribən, 222 milyon manat çox) yaxınlaşması, başqa sözlə, 28 faiz böyüməsi bunun bariz ifadəsidir.

Ötən il baş verən sığorta hadisələrinə görə, həyata keçirilən ödənişlərdə də artım qeydə alınıb. Belə ki, Mərkəzi Bankın icmalına əsasən, 2023-cü ildə 455 milyon manat (2022-ci ilin eyni dövrü ilə müqayisədə 95,7 milyon manat çox) sığorta ödənişi həyata keçirilib.

Belə bir göstərici isə onu deməyə əsas verir ki, sığorta xidmətlərinə marağın artması tədricən və mərhələli şəkildə formalaşmaqdadır ki, bu da sığortadan faydalananların sayının artımında özünü davamlı büruzə verir. Sığorta sektorunda böyümədə bütün sığorta növləri kompleks şəkildə fəal rol oynayır.

Burada bir məqam da xüsusi vurğulanmalıdır. Sığorta sistemində yüksək nəticələrin əldə edilməsi, ilk növbədə, islahat tədbirlərinin uğurla davam etdirilməsi ilə əlaqədardır. Xüsusilə də Mərkəzi Bankın uğurlu tənzimləmə və nəzarət siyasəti, o cümlədən sektorun bütün peşəkar iştirakçılarının fəal təşəbbüskarlığı bir çox ilkləri və yenilikləri şərtləndirir. Məsələn, keçən il avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növünün elektronlaşdırılması prosesinin tam başa çatdırılması nəticəsində avtonəqliyyat vasitəsi sahibi avto-icbari sığorta məhsulunun satışı üzrə lisenziyaya malik istənilən qeyri-həyat sığorta şirkətinin rəsmi veb-saytına daxil olmaqla maneəsiz və vaxt itirmədən sığortalana bilir.

Sığorta sistemində xidmətlərə əlçatanlıq bununla kifayətlənməyib. Daşınmaz əmlak sığortası üzrə nəzarət mexanizmi yaradılıb. Başqa sözlə, ötən il iyunun 1-dən İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə İcbari Sığorta Bürosu arasında elektron informasiya inteqrasiyası prosesi yekunlaşdırılaraq daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası növləri üzrə şəhadətnamələr kağız daşıyıcıdan elektron formaya keçirilib. Bununla da adıçəkilən sığorta növləri üzrə uzun müddət gözlənilən nəzarət mexanizmi formalaşdırılıb.

Sığorta fəaliyyətində maarifləndirmə layihəsi də uğurla davam etdirilib. Mərkəzi Bank, ASA və İcbari Sığorta Bürosu arasında imzalanan "Sığorta savadlığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin sistemli və ardıcıl həyata keçirilməsinə dair qarşılıqlı əməkdaşlıq haqqında" Memoranduma əsasən, ölkədə ümumrespublika səviyyəsində sığorta maarifləndirməsi layihəsinə start verilib. Layihənin icrası dövründə sığorta növlərinin təbliği, geniş əhali qruplarının müxtəlif kommunikasiya kanalları vasitəsilə sığortanın üstünlükləri və qazandırdığı dəyərlər barədə məlumatlandırılması əsas mövzu istiqamətləri olub.

Layihə çərçivəsində həyata keçirilən tədbirlər uğurlu nəticələrlə yadda qalıb: 2021-ci ildə sığorta bazarı 16 faiz, 2022-ci ildə 18 faiz, 2023-cü ildə 28 faiz, cari ilin birinci rübündə isə 18 faiz böyümə qeydə alınıb.

Sığorta sistemində həyata keçirilən islahatlar çərçivəsində kadr potensialının möhkəmləndirilməsi də diqqətdə saxlanılıb. Bu məqsədlə Mərkəzi Bank və ASA tərəfindən Türk Sığorta İnstitutu Vəqfi ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə "Aktuari inkişaf proqramı" həyata keçirilib. Bundan əlavə, Azərbaycanda əhalinin və biznesin müxtəlif xarakterli risklərə qarşı müdafiəsinin gücləndirilməsi məqsədilə ASA və Banklar Assosiasiyası tərəfindən genişmiqyaslı intensiv əməkdaşlıq platforması formalaşdırılıb. Həmin platforma ilə bank müştərilərinin həyatı, sağlamlığı və əmlakı ilə bağlı mövcud risklərə qarşı sığorta təminatının genişləndirilməsi, bu məqsədlə müştərilərə dəyər qazandıran sığorta məhsullarının birgə inkişaf etdirilməsi və müştərilərə təqdim olunması nəzərdə tutulub, sözügedən istiqamətlərdə müəyyən layihələr gerçəkləşdirilib.

Nəhayət, Azərbaycanın sığorta bazarının son illərdəki beynəlxalq əlaqələri istiqamətində qeydə alınan yeniliklər barədə də bəhs etmək istərdik. Yeri gəlmişkən, hər bir sahədə olduğu kimi, sığorta sektorunda da beynəlxalq əlaqələrin formalaşdırılması və dünya trendlərinin mütəmadi olaraq izlənməsi diqqət mərkəzində saxlanılıb. ASA ilə Türkiyə Sığorta Birliyi arasında 2020-ci il noyabrın 24-ü ilk dəfə qarşılıqlı əməkdaşlıq əlaqələri qurulub. 2022-ci il mayın 24-də Türkiyənin İstanbul şəhərində keçirilən sığorta zirvəsi toplantısında Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın sığorta birliklərinin rəhbərlərinin iştirakı ilə dünyada ilk dəfə Türk Dünyası Sığorta Birliyi təsis edilib. Elə həmin il adıçəkilən birliyin Yol xəritəsi hazırlanıb və üzv ölkələrlə razılaşdırılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

# Milli Məclis Sədrinin Özbəkistana işgüzar səfəri

**Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Respublikasının Səmərqənd şəhərinə işgüzar səfəri çərçivəsində bu ölkənin Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.**



Söhbət zamanı dost və qardaş ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluq ifadə olunaraq, xalqlarımızın eyni kökə, dilə, dini və mənəvi dəyərlərə malik olması diqqətə çatdırılıb. Bununla yanaşı, xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçılarımızın rolu xüsusi vurğulanıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinin Özbəkistanda da sevinclə qarşılandığını bildirən Tənzilə Narbayeva hazırda işğaldan azad edilmiş ərazilərdə quruculuq və yenidənqurma işlərinin böyük uğurla həyata keçirildiyini söyləyib. O, özünün ölkəmizə səfəri çərçivəsində Şuşa şəhərinə getdiyini xatırladaraq, həmin ərazilərdə görülən işlər və Şuşanın gözəlliyi haqqında xoş təəssüratlarını bildirib. Senatın sədri Azərbaycan Prezidentinin öz ölkəsinə və xalqına möhtəşəm uğurlar qazandıran lider olmaqla yanaşı, həmçinin dünya miqyasında böyük hörmət və ehtiram göstərilən siyasətçilərdən biri olduğunu vurğulayıb.

S.Qafarova görüşdə Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" fikrini xatırladaraq, türk dövlətləri arasında əlaqələrin dərinləşməsində Azərbaycan və Özbəkistanın dövlət başçılarının rolunu xüsusi qeyd edib.

Görüşdə Azərbaycan – Özbəkistan münasibətlərinin inkişafında parlamentlərin roluna da diqqət yetirilərək, qanunverici orqanlarımız arasında sıx təmasların mövcud olduğu bildirilib. Spiker hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərdiyini xatırladıb.

Söhbət zamanı Asiya Qadın Forumunun əhəmiyyəti və müzakirə olunacaq mövzuların aktuallığı barədə də fikir mübadiləsi aparılıb.

*

Milli Məclisin Sədri Sahibə Qafarova Səmərqənd şəhərində keçirilən Asiya Qadınlar Forumunda çıxış edib. O, Azərbaycanda qadınların hüquqlarının müdafiəsi və genişləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlər və əldə olunan nailiyyətlər barədə məlumat verərək deyib ki, qadınlar cəmiyyətimizdə dəyərlərin formalaşmasında mühüm rol oynayırlar. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti qadınlarımızın cəmiyyətimizin inkişafına dəyərli töhfələrini təcəssüm etdirir.

Ölkəmizdə gender bərabərliyinin təmin edilməsi, qadınların hüquq və imkanlarının genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. S.Qafarova Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatında Qadınlar Platformasının yaradılması təşəbbüsü ilə çıxış etdiyini toplantı iştirakçılarının diqqətinə çatdırıb.

Bildirilib ki, Azərbaycan həm də qadın hüquqlarının müxtəlif aspektləri üzrə müzakirələrin aparılması üçün mühüm məkana çevrilib. Ötən ilin noyabrında keçirilmiş Qoşulmama Hərəkatının "Qadın Hüquqlarının İnkişafı və Qadınların Səlahiyyətləndirilməsi" üzrə konfransı, bu il mayın əvvəlində təşkil olunmuş 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun qadın problemlərinin mədəniyyətlərarası perspektivlərinə həsr olunmuş ayrıca sessiyası səmərəli fəaliyyət və geniş müzakirələr üçün mühüm platforma olmuşdur.

S.Qafarova, həmçinin bu il Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi Konvensiyasının Tərəflər Konfransının XXIX sessiyasına – COP29-a evsahibliyi edəcəyini xatırladaraq bildirib ki, tədbirin Təşkilat Komitəsində qadınların effektiv iştirakının təmin edilməsi Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizə məsələlərinə qadınların cəlb olunması ilə bağlı qətiyyətini göstərir.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Azərbaycan–Ukrayna əməkdaşlığı müzakirə edilib

**Mayın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Ukraynanın xarici işlər naziri Dmitro Kuleba arasında telefon danışığı aparılıb.**




Tərəflər Azərbaycan ilə Ukrayna arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat, enerji və humanitar sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Telefon danışığı zamanı Azərbaycanla Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub. İki ölkə və xalqlarımız arasında münasibətlərin tarixi təməllərə əsaslandığı, daim beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən ərazi bütövlüyü və suverenliyə hörmət əsasında inkişaf etdiyi qeyd olunub.

Ukrayna tərəfi Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın ölkəsi üçün əhəmiyyətini vurğulayıb və buna görə minnətdar olduqlarını qeyd edib.

**XQ**

# Qırğızıstanda Ulu öndərin xatirəsinə ehtiram





**Azərbaycanın Qırğızıstan Respublikasındakı səfirliyinin təşkilatçılığı ilə Bişkek şəhərindəki Heydər Əliyev adına 20 saylı məktəb-gimnaziyada ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibəti ilə mərasim keçirilib.**

Məclisdə səfirliyin əməkdaşları, diaspor fəalları, təhsil ocağının müəllim və şagirdləri iştirak ediblər. Məktəb direktoru Kanikey Alimkulova ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin indiki məcrada davam etməsi üçün Heydər Əliyevin yaratdığı əsasların önəmindən söz açıb.

Səfir Lətif Qəndilov isə Heydər Əliyevin iki qardaş ölkə arasında münasibətlərin qurulmasında çox mühüm rol oynadığını qeyd edib. Diplomatın Heydər Əliyevin "Manas"ın 1000 illiyi ilə bağlı dediyi "Manas"in dili bizim ortaq dilimizdir" sözlərini xatırlatması alqışlarla qarşılanılb. Səfir bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev bu gün ulu öndərin siyasi kursunu davam etdirərək ölkələrimiz arasındakı münasibətləri daha da inkişaf etdirir. Dövlət başçısının xoş məramı ilə 20 nömrəli məktəb-gimnaziyada bu ölkədə ilk 6 otaqda STEAM mərkəzi yaradılıb.

Mərasim şagirdlərin hazırladığı bədii proqramla davam edib, Azərbaycan və qırğız dillərində mahnılar ifa olunub.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Bişkek**

# Azərbaycan, Türkiyə, Şimali Kipr parlament dostluq qruplarının Lefkoşa görüşü

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Şimali Kipr Türk Cümhuriyyəti–Azərbaycan, Türkiyə–Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyəti–Türkiyə parlamentlərarası işçi qruplarının rəhbərlərini və üzvlərini qəbul edib.**



Prezident Ersin Tatar çıxışında üç parlamentin dostluq qruplarının Şimali Kipr Türk Cümhuriyyətində bir araya gəlməsini tarixi hadisə adlandıraraq işçi qrupların üzvləri ilə görüşdən məmnunluq duyduğunu, ölkəsinin mübarizəsində "Tək millət, üç dövlət" arzusu ilə yaşadıqlarını vurğulayıb. Ersin Tatar hazırda Şimali Kipr Türk Cümhuriyyətinin müstəqil dövlət olduğunu bildirib. Şimali Kipr xalqının apardığı mübarizəni Türkiyənin, Azərbaycanın və bütün Türk dünyasının haqlı mübarizəsi adlandıran Prezident parlamentlərarası dostluq qruplarının yaradılmasının vacibliyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən Azərbaycan–Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev Şimali Kipr türklərinin yaşadıqları hadisələri sovet dönəmində Azərbaycanın da yaşadığını xatırladaraq o zamanlar Türkiyənin ölkəmizə dəstək olduğunu və qələbəni birlikdə əldə etdiklərini bildirib, hər bir azərbaycanlının Şimali Kipr türklərinin yanında olduğunu vurğulayıb.

Azərbaycan–Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov çıxışında ölkələrimiz arasında dostluğun yaradılmasında ulu öndər Heydər Əliyevin çox böyük rolunun olduğunu diqqətə çatdırıb.

Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Şamil Ayrım hər üç ölkənin yaxınlaşmasına göstərdikləri dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirib, parlamentlərarası əlaqələr üzrə işçi qrupların yaradılmasının ölkələrimizin bir-birini daha yaxından tanımasına xidmət etdiyini deyib.

*

**Mayın 13-də Milli Məclisin Azərbaycan–Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr işçi qrupunun rəhbəri Cavanşir Feyziyevin başçılıq etdiyi nümayəndə heyəti Lefkoşaya səfər çərçivəsində bu ölkənin parlamentinin sədri Zorlu Tope, Baş naziri Ünal Üstel və xarici işlər naziri Tahsin Ertuğruloğlu ilə görüşlər keçirib.**

Görüşlərdə ŞKTC ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən siyasət, iqtisadiyyat, mədəniyyət, idman sahələrində əlaqələrin inkişafına dair müzakirələr aparılıb.

ŞKTC parlamentinin və hökumətinin nümayəndələri iki ölkə arasında əlaqələrin daha da fəallaşacağına əminliklərini ifadə edərək Azərbaycanı qardaş və dost ölkə adlandırıblar.

Baş nazir Ünal Üstel ayrı-ayrı ölkələrin qarşısında duran problemlərin həlli üçün Türk dünyasında həmrəyliyin möhkəmləndirilməsinə çağırış edib.

Öz növbəsində, Şimali Kiprin xarici siyasət idarəsinin rəhbəri Tahsin Ertuğruloğlu Azərbaycanın işğaldan azad edilmiş ərazilərə səfərini xatırladıb. Nazir Azərbaycan parlamentarilərini Şimali Kipr Türk Cümhuriyyətinin problemlərinin həlli istiqamətində göstərilən səylər barədə məlumatlandırıb. O, diqqəti ŞKTC-nin tanınmaması məsələsində dünyanın müxtəlif dövlətlərinə təzyiq edən BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin mövqeyinə cəlb edib.



Ertuğruloğlu Şimali Kiprin müstəqil və suveren dövlət kimi tanınmasında qətiyyətli olduqlarını vurğulayaraq Lefkoşaya təzyiqin yolverilməzliyini qeyd edib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Cavanşir Feyziyev bildirib ki, Şimali Kipr xalqının ölkələrinin müstəqilliyinin tanınmasına tam hüququ var.

"Kipr türkləri onilliklər ərzində dezinformasiya, təzyiq və məhdudiyyət ilə mübarizə aparıblar. Bu ədalətsizliyin aradan qaldırılması böyük əhəmiyyət daşıyır. Ümid edirəm ki, Azərbaycan kimi, Şimali Kipr də sınaqlardan üzüağ çıxacaq. ŞKTC-nin müstəqilliyi bütöv Türk dünyası üçün vacibdir", – deyə parlamentari bildirib.

**XQ**

# BAMF təmsilçiləri BMT Baş Qərargahında

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun nümayəndələri BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında işgüzar səfərdə olublar.**



Səfər zamanı BAMF-ın vitse-prezidenti Oğuz Mirzəyev və BAMF-ın İnsan Resursları üzrə mütəxəssisi Heydər Rzayev BMT-nin baş qərargahında bir sıra konfranslarda fəal iştirak edərək aktual və qlobal məsələlərə dair fikir mübadiləsi aparıblar. Daha sonra BAMF nümayəndələri BMT-nin QHT Bölməsinin rəhbəri, cənab Vuk-Jin Çanq ilə görüşüblər. Söhbət zamanı hər iki tərəfin humanitar səylərinin inkişaf etdirilməsi, sülhün təşviq edilməsi, tərəfdaşlığı gücləndirmək və əməkdaşlığı genişləndirmək barəsində müzakirələr aparılıb. Azərbaycan QHT-lərinin BMT-nin ECOSOC-da təmsilçiliyinin və inteqrasiyasının gücləndirilməsi strategiyaları, o cümlədən ölkəmizdə yerli QHT-lər üçün bu qurumun statusunun necə əldə edilməsi ilə bağlı onlayn sessiyaların keçirilməsi təklifi də nəzərdən keçirilib.

Müzakirə olunan digər mühüm mövzu isə BAMF-ın dördillik hesabatlarının BMT-yə təqdim edilməsi olub. Sonda Vuk-Cin Çanqa BAMF-nin Azərbaycana səfər barədə dəvəti çatdırılıb.

**XQ**

# Hərbi Prokurorluq və Müdafiə Nazirliyinin birgə tədbiri



**Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar Ağcabədi rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçuları birgə tədbir keçirib.**

Hərbi prokurorun böyük köməkçisi – mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev, Ağdam hərbi prokuroru Elnur Kərimov polkovnik Gülməmməd Rzayev, polkovnik-leytenant Mehman Ədilovvə başqaları çıxış edərək Ulu öndərin həyat və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə görülən misilsiz işlərdən və bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən danışıblar.

Eyni zamanda, xidmətə yeni başlayan hərbi qulluqçuların andiçmə mərasimi keçirilib. Sonda ağaclar əkilib.

**XQ**

# Tezliklə Xocalıya da köç başlayacaq

**Yaxın günlərdə Xocalıya 50 ailənin köçürülməsi nəzərdə tutulur.**

Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İbrahim Mirzəyev jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, ilk növbədə, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır.

**XQ**



# Şuşanın dağları toylu-bayramlı

**Şuşada VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının 2-ci günü açıq səma altında qurulmuş səhnələr növbəti konsert proqramları ilə davam edib. Xan qızı Natəvanın Sarayı qarşısında ICESCO-ya üzv ölkələrin – Mərakeşin "Tizwit" və Birləşmiş Ərəb Əmirliklərinin "Almazyood" musiqi qruplarının konserti maraqla qarşılanıb.**



Konsertdən əvvəl Mərakeş Krallığı Mədəniyyət Nazirliyinin nümayəndəsi xanım Nada Mxatr "Tizwit"in buna qədər dünyanın bir çox ölkələrində beynəlxalq festivallarda uğurla çıxış etdiyini söyləyib: "Şuşada keçirilən musiqi bayramı da bizim üçün önəmli və çox maraqlıdır. Qrup bu gün "Gül" kompozisiyasını təqdim edəcək. Yaradıcı heyət bu festivala ciddi hazırlaşıb və öz repertuarında olan ən maraqlı musiqi nömrələrindən ibarət "çələng" düzəldib. İnanıram ki, qrupun çıxışı hər kəsin ürəyincə olacaq. İlk dəfə gördüyümzü Şuşa isə çox gözəldir. Sizin çox qədim mədəniyyətiniz və bənzərsiz musiqiniz var. Qonaqpərvərliyinizi, dadlı mətbəxinizi sözlə ifadə etmək çox çətindir. Burada olmaqdan, belə gözəl ənənələrə malik festivalda iştirak etməkdən məmnunuq".

Sonra "Tizwit" və "Almazyood" musiqi qrupları yaddaqalan musiqi nömrələri təqdim ediblər. Onların təqdimatında nümayiş olunan rəqslərdə və təqdim edilən ifalarda özlərinə məxsus milli adət-ənənələr, folklor nümunələri və müasir rəqs üslubları yer alıb. Çıxışlar alqışlarla qarşılanıb.

*

***Festival çərçivəsində mayın 12-də "Qarabağnamə" adlı sərgi nümayiş olunub. Şuşa şəhərində yerləşən Yaradıcılıq Mərkəzində açılan ekspozisiyada 23 rəssamın Qarabağın tarixi, zəngin mədəniyyəti, məişəti, xüsusilə də Şuşanın tarixi və memarlığını əks etdirən əsərləri təqdim edilib.***

Təsviri sənət ustalarımızın "Laləzar körpüsü", "Saatlı məscidi", "Azad Şuşa", "Şuşa incisi", "Ana Vətən" və digər əsərləri xüsusilə bəyənilib. Seyrçilər Qarabağın tarixi şəxsiyyətləri, başı qarlı dağları, çayları və dərələrinin ustalıqla kətana köçürüldüyünə şahid olublar. Rəsmlərin səciyyəvi cəhəti kimi rəng–forma cəlbediciliyi, tarixi yurd yerlərimizin təbiətinə sevgi, adət-ənənələrimizə peşəkar maraq diqqət çəkib.



Əsərləri nümayiş etdirilən rəssamlar sevinc hisslərini bölüşərək, bundan sonra da yaradıcılıqlarında Qarabağ və Şuşaya mövzusuna məxsusi yer ayıracaqlarını bildiriblər.

*

***İslam dünyasının mədəniyyət paytaxtında Azərbaycan, Özbəkistan və Qvineyanın peşəkar ritm ustalarının virtuoz çıxışları festivalın proqramına xüsusi rəng qatıb. Əvvəlcə ölkəmizin məşhur "Natiq" ritm qrupunun rəhbəri, Xalq artisti Natiq Şirinovun və Özbəkistan "Abbos" qrupuna başçılıq edən Əməkdar artist Abbos Qasımovun təqdimatında xalqlarımızın dostluğunu tərənnüm edən musiqi nömrələri səsləndirilib.***

Ardınca "Natiq" ritm qrupu yüksək peşəkar performans sərgiləyib. Zərb və nəfəsli musiqi alətlərinin ustaları "Qaytağı", "Qaval rəqsi", "Bir qəlbdə iki ruh", eləcə də digər kompozisiyalarla yanaşı, məhz bu konsert üçün hazırlanmış yeni nömrələri ifa ediblər.

Konsertdə özbəkistanlı sənətçilər və Qvineyadan gəlmiş məşhur ritm ustası Abubakar Silla da heyrətamiz çıxışları ilə yadda qalıblar. Şux, oynaq mahnılar bir-birini əvəz edib. Günün son konsertinin yekun nömrəsi isə peşəkar ritm ustalarının təqdimatında milli "Yallı" rəqsi olub. Bu ifanın sədaları altında bütün iştirakçılar bir daha xalqımızın həmrəyliyini, birliyini, sülhsevərliyini nümayiş etdirərək əl-ələ tutub rəqs ediblər.

Qvineyalı qonaq Abubakar Silla konsertdən sonda jurnalistlərə müsahibəsində festivalın onda zəngin təəssürat yaratdığını vurğulayıb: "Azərbaycan xalqı çox qonaqpərvərdir, milli musiqiniz son dərəcə cazibədardır, İslam dünyasının mədəniyyət paytaxtı Şuşanın füsunkar təbiəti isə adamı valeh edir. Azərbaycandan bu diyarı sevə-sevə ayrılacağam və Şuşa səfərim daim yaddaşımda qalacaq"



Xatırladaq ki, mədəniyyət vasitəsilə həmrəyliyi, dostluğu, sülhü və tolerantlığı tərənnüm edən "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalında İndoneziya, İran, Qazaxıstan, Qətər, Türkiyə də təmsil olunub. Beləliklə, musiqi bayramı mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə misilsiz töhfə verib.

***XQ***

# İkinci Türkçülük Çalışmaları: Dil məsələlərimiz

**Sosial Tədqiqatlar Mərkəzində "İkinci Türkçülük Çalışmaları: Dil məsələlərimiz" adlı elmi konfrans keçirilib.**

Bildirildi ki, Azərbaycan dilinin statusu heç vaxt bu qədər yüksək olmayıb. Bununla belə, ölkəmizdə və Güney Azərbaycanda dil sahəsində həssas problemlər qalmaqdadır. Bu problemlər dilimizin rəsmi adında, onun istifadə sahəsinin məhdud olmasında, yazı qaydaları və əlifbada, terminlər məsələsində, yad sözlərin dilimizi doldurmasında, ad və soyadlarımızda, təhsil sistemində, medianın, internetin, reklamların, eləcə də qanunlar və digər rəsmi sənədlərin dilində özünü göstərir.



Milli Məclisin deputatı Zahid Oruc dedi ki, milli kimliyimiz və onun ayrılmaz atributu olan milli dilimizin quruculuğu, inkişafı XIX əsrin sonu – XX əsrin əvvəllərində yeni elitanın – Azərbaycan maarifçiliyinin meydana çıxması ilə birbaşa bağlıdır. Milli kimliyin "türk" adlandırıldığı 1918–1935-ci illər istisna olmaqla, sovetlərin sonunadək "azərbaycanlı" kimliyi üstün mövqe tutub. 1991-ci ildə müstəqilliyin bərpasından sonra milli kimlik ətrafında müzakirələr yenidən başlanıb. Deputatın sözlərinə görə, "vahid sovet xalqı, beynəlmiləl millət" yaratmaq planlarına baxmayaraq, Heydər Əliyev Azərbaycan adını, mədəni və mənəvi kimliyini, dilini, ənənələrini, tarixini və milli ruhunu heç vaxt imperiyanın "millətsizləşdirmə" ideologiyasına qurban verməyib.

Tədbirin aparıcısı, Xalq şairi Sabir Rüstəmxanlı bildirdi ki, bizim gəncliyimiz sovet dövrünə təsadüf edirdi, heç nəyə gücümüz çatmırdı, amma dilimiz, milli kimliyimiz uğrunda mübarizə aparırdıq. Davamız hər zaman ana dili olub.

Professor Nəsib Nəsibli qeyd etdi ki, ana dilimiz heç vaxt indiki səviyyədə yüksək statusa malik olmayıb. Millətimiz hər zaman dilinə sahib çıxmalıdır.

AMEA-nın həqiqi üzvü Nizami Cəfərov bildirdi ki, dil məsələsində çox ciddi peşəkarlıq tələb olunur. Yetər ki, türk mənşəli olmağımızdan imtina etməyək. Biz bu müzakirələri davam etdirməliyik.

ADPU-nun prorektoru, professor Mahirə Hüseynova, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı maraqlı təkliflərlə çıxış etdilər və bu cür konfransların önəmini vurğuladılar.

Tədbirin ikinci hissəsinin moderatoru – STM-nin mətbuat xidmətinin rəhbəri Əziz Əlibəyli sözü Türk Dünyası Araşdırmaları İnstitutunun doktorantı Odər Qutluərə verdi. "Dildə türkçülük gərəyi" mövzunda çıxış edən məruzəçi türk dilinin önəminə geniş yer ayırdı.

Güney Azərbaycanın Xoy şəhərindən olan yazıçı, tərcüməçi Araz Əhmədoğlu "Güneydə dil sorunu" məruzəsini təqdim etdi. Jurnalist Aygün Muradxanlı medianın dili haqqında fikirlərini səsləndirdi. STM-nin baş məsləhətçisi Əfqan Vəliyev və Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti Əkbər Qoşalı da dilimizin inkişaf perspektivləri barədə fikirlərini bildirdilər.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# "Xarıbülbül"ün Laçın cilvələri



**Dünən Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının iştirakçıları və qonaqları Laçına toplaşmışdılar. Səsi ulu Zəngəzur dağlarında əks-səda verən musiqi bayramı bir daha bu yerlərin əzəli-əbədi ünvanımız olduğunu dünyaya bəyan etdi.**

Mayın 10-da Prezident İlham Əliyevin növbəti dəfə Laçına gəlməsi, su elektrik stansiyalarının açılışını etməsi, Sus kəndinə köçmüş sakinlərlə görüşməsi, iki gün sonra isə ilk dəfə olaraq burada da "Xarıbülbül" festivalının təşrif buyurması rayon sakinlərini hədsiz sevindirdi. Bu sevinclərə sanki dağlarda bitən yaz gülləri də qoşulmuşdu. Bildiyimiz kimi, Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn əsgərlərimizin xatirəsinin rəmzi kimi qəbul edilən, bülbül timsallı xarıbülbül Laçında da bitir. Əlvan kəpənəyi xatırladan səhləb çiçəyi də, o biri "xanım-xatın" güllər də yazda Hoçazı, Qırxqızı, Sarıbabanı bəzəyir. Festival təntənələri zamanı ətirli "dağ gözəlləri" Həkərinin aşağı sahillərinə boylanıraraq, qələbəliyi, çal-çağırı seyr edirdi.

Laçının laçın vaxtlarını müjdələyən festival isə çaykənarı bulvarda saatlarca davam elədi. Burada keçirilən Novruz bayramı, "Can Laçın" yarmarkası, digər kütləvi tədbirlər kimi, "Xarıbülbül" festivalının da yaddaşların bahar əsintisinə çevriləcəyi şübhəsizdir. Çünki Laçında qonaqlar və yerli sakinlər üçün fərqli ölkələrdən gələn ifaçıların təqdimatında rəngarəng proqramlı möhtəşəm konsert təşkil olundu...

Laçın şəhərinin ən mənzərəli məkanlarından birinə gələn qonaqlara milli-mənəvi irsimizdən, ənənələrin valideyndən övlada keçməsindən, gənc nəslin milli dəyərlərə sevgi və sədaqətindən qaynaqlanan "Sələflər və xələflər" layihəsi təqdim olunub.

Konsert proqramında Azərbaycanın tanınmış incəsənət ustalarının onların sənətini davam etdirən övladları, yetirmələri ilə birgə çıxışları maraqla qarşılanıb.

Sonda iştirakçılar hamılıqla "Bura Vətəndir" mahnısını ifa ediblər.

***XQ***

# Güney Azərbaycanda Füzuli sevgisi



**Güney Azərbaycanın Meşkin Şəhr şəhərində dahi şair, mütəfəkkir və filosofu Məhəmməd Füzuliyə həsr olunmuş ədəbi-bədii gecə keçirilib.**

Məclis Füzuli və Türk poeziyası Günü ilə üst-üstə düşüb. Görkəmli mədəniyyət və incəsənət xadimləri iştirak etdikləri toplantıda qeyd olunub ki, 530 illik yubileyi qeyd edilən Məhəmməd Süleyman oğlu Füzuli Azərbaycan və türk ədəbiyyatı tarixində divan janrının ən məşhur və görkəmli nümayəndələrindən biridir. Azərbaycan və türk poeziyasının inkişafında böyük rol oynamış Füzulinin yaradıcılığı ətraflı müzakirə olunub, ilahi məhəbbət şairinin lirikasının fərqli xüsusiyyətlərindən bəhs edilib.

Gecə boyunca gənc qiraətçilərin ifasında Füzulinin əsərlərindən nümunələr ana dilində səsləndirilib.



***XQ***

# Kitaba dost qazandıran sərgi

**Xəbər verdiyimiz kimi, Sumqayıtdakı Əli Kərim adına "Poeziya Evi"ndə VI Milli Kitab Sərgisi keçirilib. Dörd gün ərzində orada müxtəlif nəşriyyatların Azərbaycan, türk, rus və ingilis dillərində buraxdığı minlərlə kitab endirimli qiymətlərlə satışa çıxarılıb, tanınmış ziyalıların, şair və yazıçıların oxucularla görüşləri olub.**




Abşeron–Xızı Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə, başlıca olaraq "Qanun" Nəşrlər Evinin təşkil etdiyi bayram, eyni zamanda, Sumqayıtın qarşıdan gələn 75 illik yubileyinə həsr olunub. Qeyd edilib ki, bu cür tədbirlər insanlarlı, xüsusilə də gəncləri kitaba daha da yaxınlaşdırır, mütaliə mədəniyyətini artırır.

Sərgidə "Qanun"la bərabər, "Alatoran", "Ting", "Üçbucaq", "Kosmo" nəşriy-yatlarının, "Ziya Bilim Evi"nin məhsulları nümayiş etdirilib. "Əli və Nino", "Kitab al", "Karamazov", "Kitabçı", "Novella", "Papilion" kitab evləri və mağazaları oxuculara ucuz qiymətə dəyərli ədəbiyyat nümunələri təklif ediblər.

Sərgi çərçivəsində baş tutan panellər də maraqlı olub. Xalq şairi Sabir Rüstəmxanlının 15 cildlik "Seçilmiş əsərləri"nin 11-ci cildinin, nasir, şair, tərcüməçi Baba Vəziroğlunun "Qalanı xatirədir", psixoloq Samirə Amonun "Ağ qan", şair Hikmət Fərzəlinin "Ömür dediyin" kitablarının təqdimatı və "İmza günləri" keçirilib. Tanınmış yazıçı Elçin Hüseynbəyli və Həmid Herisçi, şair Dayandur Sevgin, Aida Adıgözəl, Lilpar Cəmşidqızı, Mürşüd Mehdi, Nigar Mahi ilə maraqlı görüşlər olub.

**Sərginin təşkil edildiyi "Poeziya Evi"nin direktoru, AYB-nin bölmə rəhbəri İbrahim İlyaslının dedikləri:**

– Kitab bayramının birmənalı şəkildə mütəşəkkil keçdiyini deyə bilərəm. Kitablara və müəlliflərlə görüşlərə oxucu marağı böyük idi. Proqram üzrə keçən "Sumqayıt maraqlı insanlar şəhəridir", "Sumqayıt nə oxuyur?" adlı diskussiyalar da kitabsevərlərə xoş təsir bağışladı. Sərgidə, həmçinin "Ulu öndər və Sumqayıt", "44 günlük müharibə və Sumqayıt" adlı müzakirələr oldu, "Unudulmaz Əli Kərim" mövzusunda Cavanşir Yusifli, Nadir Yalçın və Şərif Ağayarın söhbətləri, "Xoşbəxt uşaqlar böyüdək" adlı seminar, "Ədəbiyyat və illüstrasiya" paneli təşkil edildi. AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddinin təqdimatında şəhərimizin 75 illiyinə həsr olunan "Sumqayıt saatı" yaddaqalan oldu. Tədbirdə yerli şairlər poetik nümunələrini təqdim etdilər. Elşən Hüseynovun moderatorluğu ilə isə "Uşaq inkişafında oyun terapiyasının əhəmiyyəti" mövzusunda seminar keçirildi. Bir sözlə, belə bayramların ölkəmizdə artıq ənənə halını alması çox sevindiricidir.

Onu da deyək ki, VI Milli Kitab Sərgisinə hər yaş qrupundan olan oxucular maraq göstəriblər. Əyləncəli çıxışlar, oxu saatları, musiqiçilərin ifaları bayramı daha da rövnəqləndirib. Sumqayıt Milli Kamera Ansamblının, "Endofin" Rok Qrupunun ifasında musiqi nömrələri səsləndirilib, "Turan" milli rəqs qrupu performans nümayiş etdirib, "M Teatr"ın təqdimatında "Qoğal" uşaq tamaşası göstərilib.



***Ə.ƏLİYEV***
***XQ***

# Uşaq qəlbini saflaşdıran tamaşa

**Sumqayıt Dövlət Dram Teatrının quruluşçu rejissoru Fuad Kazımov yazıçı Nizami Mirzəyevin tərcüməsində Dyula Urbanın "Bütün siçanlar pendiri sevirlər" tamaşası balaca teatrsevərlərə təqdim olunub.**



Yaradıcı heyəti uşaqlara dost sədaqətini, saf sevgini, vətənpərvərliyi, humanizmi təlqin edən əsəri uğurla səhnələşdirib. Tamaşanın quruluşçu rəssamı Elşən Sərxanoğlu, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyev, icraçı rəssam Nizami Dadaşov, baletmeyster Kamil Ağayevdir. Səhnə əsərinin ilk nümayişi şənbə və bazar günlərində 6 seans ardıcıl gerçəkləşdirilib.

Teatrın direktoru Samir Şəfiyev "XQ"-yə açıqlamasında janrından, hədəf kütləsindən asılı olmayaraq, hər yeni tamaşanın sənət ocağı üçün bayram adlandırıb və səhnə əsərinə görə zəhməti olan yaradıcı heyətin səylərini təqdir edib.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Şimali Makedoniya Avropadan üz çevirə bilər

**Avropanın daha bir ölkəsi "köhnə qitə"yə üz döndərməyə hazırlaşır. Söhbət Şimali Makedoniyadan gedir. Ötən bazar günü bu ölkənin yeni prezidenti fəaliyyətə başlayıb. VMRO-DPMNE müxalifət partiyasının namizədi olan Qordana Siljanovskaya-Davkova səlahiyyətlərinin icrasına başladığı ilk gün səsləndirdiyi bəyanatlar Avropada narazılıq və narahatlıq doğurub.**



Ötən şənbə günü Makedoniya Mərkəzi Seçki Komissiyası mayın 8-də keçirilən prezident seçkilərinin ikinci turunda Qordana Siljanovska–Davkovanın qələbəsini təsdiqləyib. VMRO-DPMNE mötədil millətçi partiyanın namizədi 65 faizdən çox səs toplayaraq hazırkı prezident Stevo Pendarovskiyə qalib gəlib. Artıq bazar günü xanım Silyanovskaya-Davkova parlamentdə and içərək prezident kimi fəaliyyətə başlayıb. Makedoniyanın yeni prezidentinin andiçmə mərasimi mayın 12-də parlamentin qarşısında keçirilib. Mayın sonunadək toplanmalı olan deputatların yeni tərkibi prezident seçkilərinin ikinci turu ilə eyni vaxtda keçirilən parlament seçkilərinin nəticələrinə əsasən müəyyən edilib.

Bu seçkilərdə də 120 yerlik parlamentdə VMRO-DPMNE 58 yer qazanıb. Bu, indiyədək iqtidar partiyası olan Makedoniya Sosial Demokrat İttifaqından 40 yer çoxdur. Makedoniyanın yeni baş naziri olacaq Kristian Mitskovski yeni parlamentdə 13 yer qazanmış Albaniyanın "Vlen" ("Bu, dəyər") partiyası ilə hakim koalisiyanın yaradılması ilə bağlı razılaşmanın əldə olunduğunu açıqlayıb. Mütəxəssislərin sözlərinə görə, hakimiyyətin köklü dəyişməsi Şimali Makedoniyanın daxili və xarici siyasətində ciddi dəyişikliklərə gətirib çıxaracaq. Yeni baş nazir artıq bildirib ki, əvvəlki hakimiyyətin idarəçiliyi zamanı törədilmiş qanunazidd əməllərə hüquqi qiymət veriləcək. Bu o deməkdir ki, siyasi partiyalar arasında qarşıdurma güclənəcək.

Xarici siyasətdə də ciddi dönüşün mümkünlüyü müzakirə edilir. İndiyədək ölkəni Avroatlantik inteqrasiya yolu ilə aparan məhz sosial-demokratlar olmuşdular və bunun üçün ciddi güzəştlərə də getmişdilər. Belə ki, 2019-cu ildə Skopye tarixi mübahisəni həll etmək üçün Afina ilə razılığa gəlmişdi: makedoniyalılar Makedoniyanın adını Şimali Makedoniya olaraq dəyişdirməyə razı olmuşdular və bu, onların bir il sonra NATO-ya qoşulmalarına yolunu açmışdı. Bununla belə, Skopye hələ 2005-ci ildə namizəd statusu alsa da, ötən müddət ərzində Avropa İttifaqına qəbul edilmir. Əvvəlcə Fransa buna qarşı çıxdı, danışıqlara yeni yanaşmanın işlənib hazırlanmasını tələb etdi. Aİ-yə daxil olmaq üçün yeni qaydalar hazır olanda isə Bolqarıstan bolqar azlığının hüquqlarının qorunmasının zəruriliyini diqqətə çatdırdı və bu tələb Skopye ilə danışıqların başlamasını təxirə saldı. Sonda bu maneə iki il əvvəl aradan qaldırılsa da, Şimali Makedoniyanın Avropa İttifaqına daxil olması qarşısındakı əngəllər hələ də qalır.

Skopye ilə Sofiya arasındakı mübahisənin həlli düsturuna görə, Şimali Makedoniya konstitusiyaya bolqar milli azlığı ilə bağlı müddəa daxil etməlidir. Bunun üçün isə prezidentin razılığı və parlamentdə çoxluq lazımdır. VMRO-DPMNE liderləri isə deyirlər ki, "bolqarların konstitusiyaya daxil edilməsini heç vaxt dəstəkləməyəcəklər". Ölkənin yeni prezidenti isə "Makedoniya öz qürur hissini bərpa etdi" adlı seçki proqramında yazıb ki, "Yunanıstanla razılaşma açıq məsələdir" və çıxışlarında "şimal" anlayışından istifadə etməyəcək. Beləliklə, Makedoniyanın yeni hakimiyyət orqanları öz fikrində qalsalar, Skopyenin Avropa İttifaqına gedişi, çox güman ki, dayanacaq.

Şimali Makedoniyanın üz döndərəcəyindən narahat olan Brüssel artıq bəyanatlar səsləndirməyə başlayıb. Avropa İttifaqının xarici siyasət xidmətinin rəhbəri Jozep Borrel və təşkilatın genişlənmə üzrə komissarı Oliver Varqei bildiriblər ki, prezident və parlament seçkilərində sağçı qüvvələrin qələbəsindən sonra Şimali Makedoniyanın yeni hökuməti ilə əməkdaşlığa ümid edirlər: "Aİ və Şimali Makedoniya arasında güclü tərəfdaşlıq mövcuddur. Ölkə Aİ-nin ümumi xarici və təhlükəsizlik siyasətinə tam qoşulub və biz əməkdaşlığımızın davam edəcəyini və inkişaf edəcəyini gözləyirik". Ancaq Skopyenin Aİ-nin bu növbətçi bəyanatlarına inanıb-inanmadığını yaxın günlərdə atacağı addımlarla cavab verəcək.

***S.ELAY***
***XQ***

İDMAN

# Güləşçilərimizin Parisə yolu açıqdır

## 18 lisenziyanın 12-ni pəhləvanlarımız qazanıblar




### Tam heyətlə olimpiadaya

Paris Olimpiadasında iştirak edəcək güləşçilərimizin yekun siyahısı artıq məlumdur. Hələ 1 ay əvvəl Azərbaycanın sərbəst güləşçiləri Bakıda doğma divarlar arasında təşkil edilən Avropa Olimpiya Təsnifat Turnirində böyük uğurla çıxış edərək Paris Oyunlarına 5 vəsiqə qazanmışdılar.

Belə ki, millinin üzvlərindən Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Turan Bayramov (74 kq), Osman Nurməhəmmədov (86 kq), Maqomedxan Maqomedov (97 kq), Georgi Meşvildişvilinin (125 kq) olimpiadaya gedəcəyi rəsmiləşmişdi. Həmin turnirə qədər isə Maqomedxan Maqomedov (97 kq) "Paris-2024"də iştirak hüququ əldə etmişdi. Onu da bildirək ki, Azərbaycanla yanaşı, yalnız İran tam heyətlə bu yarışa qatılacaq.

### Avropada birinci, dünyada 3-cü...

"Sərbəst"lərdən sonra yunan-Roma güləşçilərimizin də Paris Olimpiadasında geniş heyətlə təmsil olunacağı müəyyənləşib. Belə ki, Türkiyənin İstanbul şəhərində həftəsonu başa çatan Dünya Olimpiya Təsnifat turnirində "klassiklər"imizdən daha 3-ü – Murad Məmmədov (60 kq), Rafiq Hüseynov (87 kq) və Sabah Şəriəti (130 kq) Paris Oyunlarına vəsiqə əldə edib.

Həsrət Cəfərov (67 kq) və Sənan Süleymanov (77 kq) isə lisenziyanı daha əvvəl qazanmışdılar. Beləliklə, idmançılarımız bu növ üzrə 1 çəki dərəcəsindən başqa, bütün kateqoriyalarda mübarizə aparacaqlar. Bu göstəriciyə görə, yığmamız "köhnə qitə"də hamıdan öndədir. Dünyada isə bu nəticə ilə yunan-Roma millimiz 3-cü yeri tutur. Yalnız iki ölkənin –İran və Misirin güləşçiləri bizi qabaqlayır. 5 lisenziya qazanan Rusiya təmsilçiləri isə öz ölkələrini təmsil edə bilmədiklərindən Parisdə neytral statusda iştirak edəcəklər.

### Qadın güləşçilərin Olimpiya rekordu

Qardaş Türkiyədə qadın güləş komandamızın üzvü Mariya Stadnik multiidman oyunlarına "bilet" alıb. Dünya şöhrətli idmançı bununla da, 5-ci dəfə Oyunların iştirakçısı adını qazanıb və dünya rekorduna sahib olub.

Olimpiadalar tarixində cəmi 8 güləşçi 5 dəfə yarışlarda iştirak edib, onların arasında da qadın idmançı yoxdur. Əvvəlki oyunlarda 2 gümüş və 2 bürünc medalı olan idmançımız ilk qızılını Fransada qazanmağa çalışacaq.

### "Paris-2024"ə 24 lisenziya

"Paris-2024"ə güləşin 3 növü üzrə 18 mümkün lisenziyadan 12-ni qazanan Azərbaycan bu nəticə ilə 4-cü yerdədir. Dördilliyin əsas idman yarışına ən çox vəsiqəni neytral statuslu atletlər əldə ediblər. ABŞ və Yaponiya isə 2-3-cü yerlərdə qərarlaşıb. Onu da əlavə edək ki, "Pekin-2008"dən başlayaraq artıq 5-ci olimpiadadır ki, Azərbaycan millisi güləşin hər 3 növü üzrə təmsil olunur.

Qeyd edək ki, 2024-cü il Yay Olimpiya Oyunlarında güləş yarışlarında 288 idmançı (192 kişi və 96 qadın) 18 dəst medal uğrunda mübarizə aparacaq. Hər bir ölkə yalnız 1 çəki dərəcəsində 1 idmançı ilə (12 kişi və 6 qadın) təmsil oluna bilər.

Bununla da, Azərbaycan milli komandasının lisenziya sayı 24-ə yüksəlib.

***Leyla QURBANOVA***
***XQ***

## "Zəyəm Texnologiyalar Parkı" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da AZ5730, Şəmkir rayonu, Zəyəm şəhər tipli qəsəbədə, S.Vurğun küçəsi 24 nömrəli ünvanda "Zəyəm Texnologiyalar Parkı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Zəyəm Texnologiyalar Parkı" ASC-nin 2023-cü iş ili üçün maliyyə hesabatı.
2. "Zəyəm Texnologiyalar Parkı" ASC-nin müfəttiş vəzifəsinə Samir Məhəmməd oğlu Hacıyevin təyin edilməsi.
3. "Zəyəm Texnologiyalar Parkı" ASC-nin Müşahidə Şurasının əsasnaməsinin təsdiq edilməsi.
4. "Zəyəm Texnologiyalar Parkı" ASC-nin aidiyyəti şəxslərlə əqdlərin bağlanması barədə ümumi yığıncağının qərarının verilməsi.

Qeyd:

• Səhmdarlar illik ümumi yığıncağın gündəliyinin materialları ilə ümumi yığıncaq zamanı tanış ola bilərlər.

• Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, hər bir səhmdar ümumi yığıncaqda iştirak hüququnu özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Sonuncu halda nümayəndənin səlahiyyəti qanunvericiliklə müəyyənləşdirilmiş formada tərtib olunmuş etibarnamə ilə təsdiq edilməlidir.

## "Bakı Tikiş Evi" ATSC səhmdarlarının nəzərinə!

"Bakı Tikiş Evi" ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı 28 iyun 2024-cü il saat 11.00-da cəmiyyətin yerləşdiyi inzibatı binada aşağıdakı gündəlikdə keçiriləcəkdir.

Yığıncagın gündəliyi:

1.“Bakı Tikiş Evi” Açıq Tipli Səhmdar Cəmiyyətinin icra orqanlarının seçilməsi.

2.“Bakı Tikiş Evi” Açıq Tipli Səhmdar Cəmiyyətinin 2022 və 2023-cü maliyyə illəri üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq olunması.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 18.00-dək səhmdar cəmiyyətin Bakı şəhəri, Mərdanov qardaşları küçəsi 113 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin idarə heyətinin sədrinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan – Bakı şəhəri, Mərdanov qardaşları küçəsi 113.

***Müşahidə şurası***

## "Quba Konserv-1" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 15.00-da "Quba Konserv-1" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Cəmiyyətin mühasibat balansının və illik hesabatının təsdiqi.
2. Digər cari məsələlərin müzakirəsi.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Ünvan- Quba şəhəri, Vaqif küçəsi 30.

## "Quba Konserv-2" ASC səhmdarlarının nəzərinə!

29 iyun 2024-cü il saat 15.00-da "Quba Konserv-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Cəmiyyətin mühasibat balansının və illik hesabatının təsdiqi.
2. Digər cari məsələlərin müzakirəsi.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Ünvan- Quba şəhəri, Vaqif küçəsi 139.

## "AZİNŞAAT SERVİS" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da "Azinşaat Servis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Təşkilati məsələlər.
2. Səhmdar cəmiyyətin idarəetmə orqanlarının 2023-cü il üçün illik hesabatı.
3. Digər məsələlər

Telefon – (012) 566-20-12.

Ünvan – Bakı şəhəri, Keşlə qəsəbəsi, 4-cü Köndələn küçəsi 1.

***İdarə heyəti***

## "Sabunçu Əyrici" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da "Sabunçu Əyrici" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. "Sabunçu Əyrici" ASC-nin idarə heyətinin 2023-cü ilin yekunlarına görə hesabatı və maliyyə nəticələrinin təsdiqi.
2. "Sabunçu Əyrici" ASC-yə məxsus binanın dam örtüyünün əsaslı təmiri üçün lazım olan vəsaitin ayrılması məqsədilə əsas səhm paketinə sahib səhmdara müraciət edilməsi.
3. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Azərbaycanda karantin rejiminin 1 iyul 2024-cü ilə qədər uzadıldığını nəzərə alaraq yığıncaq onlayn keçiriləcəkdir. Onlayn platforma-iclasın videoqeydiyyatı "ZOOM" proqramı vasitəsi ilə aparılacaqdır.

Bütün səhmdarlardan xahiş olunur ki, yığıncağın keçirilmə vaxtına 1 gün qalmış (24 saat) iclasda "ONLAYN " iştirak üçün müvafiq kod alaraq qeydiyyatdan keçmələrini bütün səhmdarların onlayn iclasa qoşulması üçün telefon nömrələrini 050-453-94-61 "WhatsApp " nömrəsi ilə təmin etsinlər.

Səhmdarların iştirakı vacibdir.

***İdarə heyəti***

## "Səyyarmextikinti" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2024-cü il saat 11.00-da "Səyyar-mextikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin 2023-cü il üçün illik fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Cəmiyyətin müşahidə şurasının yeni tərkibinin seçilməsi.
3. Digər məsələlər.

Əlaqə telefonu – (050) 545-92-41.

***İdarə heyəti***

## "Bakı Dəmir-Beton-7" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

"Bakı Dəmir-Beton-7" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti illik ümumi yığıncağı 29 iyun 2024-cü il saat 11.00-da Bakı, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2a nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "Bakı Dəmir-Beton-7" ASC-nin 2023-cü il üzrə illik fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

***ASC-nin idarə heyəti***

## "Sabirabad Yem Zavodu" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 10.00-da "Sabirabad Yem Zavodu" ASC səhmdarlarının illik ümumi yığıncağı Sabirabad şəhəri, Heydər Əliyev parkında keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin maliyyə hesabatı.

Ünvan – Sabirabad şəhəri, Heydər Əliyev prospekti, Heydər Əliyev parkı.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 99 (30503) 14 may 2024-cü il, çərşənbə axşamı

# Milli musiqimizin ifaçısı, təbliğçisi, öyrədicisi

**Deyirlər dünyanı gözəllik xilas edəcək. Bir də deyirlər ki, musiqi Tanrının bəşər övladına sevgisinin təzahürüdür. "XQ"nin növbəti qonağı sənəti, gözəlliyi və sevgini vəhdət halına gətirən Əməkdar artist, Milli Konservatoriyanın müəllimi, xanəndə Nuriyyə Hüseynovadır.**

***– Nuriyyə xanım, Ordubad rayonunun dağlıq Dırnız kəndindən peşəkar səhnəyə gəlib çıxmaq o qədər də asan sənət yolu deyil ...***

– Böyük şəxsiyyətlərin həyat və yaradıcılığına nəzər salanda görürsən ki, əksəriyyəti ucqar kəndlərdən çıxıb. İndi mən özümü böyük hesab etmirəm... Amma harada doğulmasından asılı olmayaraq, Tanrı hər kəsə bir missiya verir. İnsanın yaranışından bu dünyanı tərk edəcəyi günədək həyatı proqramlaşdırılır, yolu müəyyən olunur. Və o yolda xeyirxahı kim olacaq, bədxahı kim... hamısı yazılır. Bəli, ucqar dağ kəndində doğuldum, bu gün dünyanın məşhur səhnələrindəyəm. Deməli, belə olmalı imiş...

Ağlım kəsəndən evdə anamdan xalq mahnılarını, təsnifləri eşitmişəm. Anam bizə layla yerinə Cahangir Cahangirovun bəstələrini oxuyardı. Orta məktəbdə nəğmə dərsində səsim olduğunu bildilər. Məktəbin tədbirlərində çıxış edirdim. Bir dəfə də dedilər ki, respublika mahnı müsabiqəsi olacaq, iştirak üçün sənin də adını yazdırmışıq. Bölgələrdə başlayıb, Bakıda yekun vurulan yarışmada mən Naxçıvandan qatıldım və bölgənin qalibi oldum. Elə həmin gün bizi Bakıya aparmalı oldular. Məktəbimizin direktoru dedi ki, sən burada qal, mən gedib evinizdən pal-paltarını gətirəcəm. Onda beşinci sinifdə oxuyurdum, çaşıb qalmışdım, bilmirdim nə baş verir. Sıxılırdım, mənimçün çox çətin idi.

Münsiflər heyətinin zəngin tərkibi vardı: Sara Qədimova, Şövkət Ələkbərova, İslam Rzayev, Vasif Adıgözəlov, Arif Babayev. Heyətə Niyazi rəhbərlik edirdi. Onların qarşısında çıxış etdik. Maestro dedi ki, biz yalnız müsabiqə üçün deyil, operanın gələcəyi üçün boy-buxunlu, gözəl, milli simalı Leyli tapmışıq. Mən o vaxt həmin fikirlərin mahiyyətini belə anlamırdım. Qaliblərin yekun konsertində ulu öndər Heydər Əliyev də iştirak edirdi. Onun qərarı idi ki, bölgələrdən istedadlı gənclər seçilib gətirilsin Bakıda təhsil almağa. Növbə mənə çatanda elan olundu ki, çıxış edir Naxçıvan MR Ordubad rayonu Dırnız kənd orta məktəbinin beşinci sinif şagirdi Nuriyyə Məmmədova. Gördüm ki, Heydər Əliyev diqqətlə üzümə baxdı və gülümsədi. Konsertdən sonra mənə böyük bir çələng verdilər ki, bunu ulu öndərə sən təqdim et. Sevncimdən uçurdum, hardan hara gəlib ölkə rəhbəri ilə görüşürdüm. Heydər Əliyev çələngi aldı və alnımdan öpdü.

Hökumətin qərarı ilə müsabiqənin qalibləri Bülbül adına orta ixtisas musiqi məktəbində oxumalı idilər. Orada bizim üçün ilk dəfə xanəndəlik sinfi açıldı. İslam müəllim, Şövkət xanım qaliblərə dərs deməyə başladılar. Valideynlərim mənim oxumağıma razılıq vermədilər. Həmkarlar İttifaqı təşkilatı ölkə rəhbərinin iradəsini valideynlərimə məktubla çatdırdı. Sonra Həsən Həsənov Naxçıvana işgüzar səfərə gələndə evimizdə oldu. Valideynlərimlə danışdı ki, onlar öz evlərindən daha etibarlı yerdə olacaq, xüsusi nəzarət altında təhsil alıb, yaşayacaq və dövlət təminatında qalacaqlar. Beləliklə,



gəldim Bakıya, amma dayımgildə qaldım. Təhsil illərində Səmərqənddə keçirilən musiqi simpoziumuna qatıldım, Moskvada Azərbaycan Mədəniyyəti Günlərində iştirak etdim. Valideynlərim əksər tədbirlərə qatılmağıma etiraz edirdilər. Bakıda keçirilən dövlət tədbirlərində çıxış edirdim. Bizi o tədbirlərə Niyazi, İslam Rzayev, Şövkət xanım hazırlayırdılar. Məktəbi bitirəndən sonra Konservatoriyada bizim üçün muğam sinfi açıldı.

Birinci kursda oxuyanda ailə qurdum. Respublika Həmkarlar İttifaqının sədri Lidiya Rəsulova məni yanına çağırdı. Bir az incik və acıqlı danışdı. Dedi ki, biz səni oxutdurduq ki, ailə qurub sənəti ikinci plana atasan? Amma ailə qurmasaydım valideynlərim sənətdə qalmağıma icazə verməzdilər. Bakıda tək qalmağımdan ehtiyat edirdilər. Təbii ki, mənim üçün ağır idi, valideynlərimin sözündən çıxa bilməzdim. Beş il konservatoriyada çox əziyyət çəkdim. İki körpə uşaqla əyani təhsil alırdım. Ölkədə müharibə gedirdi, SSRİ dağıldı, yeni sistem yarandı.

***– Bakı Musiqi Akademiyasını bitirəndən sonra həm də pedaqoji fəaliyyətlə məşğulsunuz. Asəf Zeynallı adına Musiqi və Bakı Humanitar kolleclərində, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və hazırda Milli Konservatoriyada dərs deyirsiniz. Çətin ifaçılıq sənətini gərgin pedaqoji fəaliyyətlə necə uzlaşdıra bilirsiniz?***

– Məhz muğam sənətindən pedaqoji fəaliyyətə həmyaşıdlarım arasında ilk mən başlamışam. Dərs deyənlər var idi, amma muğam sənətindən yox. Öyrətdikcə özüm də öyrənirdim. Nəzəriyyə ilə təcrübə birləşəndə nəticə gözəl olur. Sənətimin incəliklərini təhsil illərimdə əxz etmişdim, dərs demək məni püxtələşdirdi. Hər tələbəyə fərd kimi yanaşıb, yalnız sənəti deyil, ona həyatı da öyrətmək müəllimin vəzifəsidir. Yaxşı tələbə yetişdirmək dünyanın gözəlləşməsinə xidmət etməkdir. Yalnız milli-mənəvi dəyərləri deyil, onlara həm də bəşəri dəyərləri aşılamalısan. Tələbələrim indi mənimlə bir səhnəni bölüşürlər. Bu yaxınlarda yaradıcılıq gecəm oldu, ərsəyə gətirdiyim, kitab şəklində çap olunan iyirmi beş əsəri tələbələrim tamaşaçılara təqdim etdilər.

***– Böyük Niyazi simanızda səhnəmizə yeni Leyli gəlir demişdi, amma siz Leyli olmadınız...***

– Olmadım, bilmirəm niyə, bəlkə, vaxt tapmadım, bəlkə də abır-həya mane oldu. Potensialımın çatdığı işlərə utancaqlığım imkan vermədi. Zəhmətimlə bu günə gəlmişəm. Əməkdar artistəm, böyük əmək sərf etmişəm. Cənab Prezident bu adı xidmətlərimə görə verib. Layiq olduğum mərtəbəyə çatmamağıma abır-həya mane olub. Gedib yaxınlaşmalı, deməli idim, amma heç kimə heç nə demədim...

***– AMEA-nın Folklor İnstitutunun "Dədə Qorqud" ("İrs") ansamblının rəhbəri olmusunuz. Məhz bu ansamblla xarici ölkələrdə konsertlər vermisiniz. Xaricdə muğamımız, milli musiqimiz necə qarşılanır?***

– Çox gözəl qarşılanır. Özünü dərk edən, musiqini duyan tamaşaçı dili bilməsə də, nə oxuduğunu anlayır. Bizim muğamlara heç dil gərək deyil, musiqi özü danışır. "İrs" ansamblı isə xüsusi maraq yaradırdı, geyimlərimiz, qədim musiqi alətlərimiz həmişə tamaşaçıya maraqlı olub.

***– Sizi Türkmənistanla da yaradıcılıq əlaqəsi bağlayır. Hətta Prezident Qurbanqulu Berdiməhəmmədovun xüsusi mükafatına layiq görülmüsünüz.***

– Əslində, bu, TÜRKSOY-un sayəsində olub, onun tədbirlərində çox iştirak etmişəm. Türkdilli ölkələrin çoxunda çıxışlarım olub. Türkmənistan türkdilli ölkələrin paytaxtı seçilən il çıxışımdan sonra Qurbanqulu Berdiməhəmmədov mənə onların milli geyimlərini və qızıl medalyon hədiyyə etdi. Belə tədbirlərdə hər ölkənin öz hədiyyəsi olurdu. Türkiyədə Qarabağ, Xocalı soyqırımı ilə bağlı elmi konfranslarda çıxışlar etmişik. Haqlı ola-ola haqsız duruma düşdüyümüzdən musiqinin dili ilə danışmışıq. Daim dövlətimin yanındayam. Tanımadığım, bilmədiyim özəl dəvətlərə getməmişəm.

***– "Dünya musiqi xəzinəsinin incisi Muğam" İctimai Birliyinin rəhbəri kimi də fəaliyyətiniz diqqətçəkəndir.***

– Birliyimiz 3 ildir fəaliyyətdədir. Çox faydalı tədbirlər keçirmişik. Zatən, ona qədər də belə fəaliyyətimiz var idi. Allah rəhmət eləsin rəfiqəm Qənirə Paşayevaya. O dedi ki, yaxşısı budur, öz QHT-ni yarat və onun xətti ilə keçir bu tədbirləri. İlk tədbirimizi Qarabağın fatehlərinə həsr etmişik. Həm sənətkar, müəllim, həm də ictimai təşkilat rəhbəri kimi dövlətimizə, insanımıza dəstək olmağa çalışırıq. Nə qədər bacarırıqsa onu da edirik.

***– Həmin o dağ kəndindən başlayıb bu günə gəldiyiniz yola dönüb baxanda nəyi dəyişmək, yaxud olduğu kimi saxlamaq istərdiniz?***

– Ailədə təhsilli, müasir insanların əhatəsində yetişmişəm. Həmişə onlardan "dərsini oxu, təhsil al" məsləhətini eşitmişəm. O yolu necə gəlmişəmsə, elə də qalmışam, heç saç formam da dəyişməyib. Amma düşüncəm, həyata baxışım dəyişib. Ən böyük inkişaf mənəvi dəyərlərə söykənib gələcəyə baxmaqdır. Dönüb gəldiyim yola nəzərə salanda "kaş ki" heyfsilənməyim yoxdur.

Üstündən neçə illər keçəndən sonra Fransaya konsertə gedəndə hava limanında Lidiya Rəsulova ilə rastlaşdıq. Məni qucaqladı, ailəmi, uşaqlarımı soruşdu və dedi ki, o vaxt sənə acıqlanmışdım, amma indi deyirəm, sən çox düz elədin, bu gün həm ailən var, həm də sənətin.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***

İDMAN

## "Böyük dəbilqə"də 3 mükafat

**Qazaxıstanın Astana şəhərində keçirilən "Böyük dəbilqə" yarışında Azərbaycan yığması 3 bürünc medal qazanıb.**




Millimizin heyətində Elcan Hacıyev (90 kq), Vüqar Talıbov (90 kq) və Kamran Süleymanov (66 kq) mükafatçılar sırasında yer alıblar.

Qeyd edək ki, Azərbaycan yığması mayın 19-23-də Abu-Dabidə keçiriləcək dünya çempionatında iştirak edəcək.

## Parataekvondo millimizin tarixi uğuru

**Azərbaycan parataekvondo millisi Avropa çempionatında tarixi uğur qazanıb.**




Serbiyanın paytaxtı Belqradda keçirilmiş yarışda yığmanın üzvləri İmaməddin Xəlilov (70 kq) qızıl, Əbülfəz Abuzərli (80 kq) gümüş medal qazanıblar. Yığma bu nəticə ilə medal əyarına görə komanda hesabında birinci yeri tutub. İkinci pillədə Türkiyə, üçüncü sırada isə neytral statusda çıxış edən idmançıların komandası (AIN) qərarlaşıb.

Qeyd edək ki, Azərbaycan millisi qitə birinciliyində baş məşqçi Fərid Tağızadənin rəhbərliyi altında 3 parataekvondoçu ilə təmsil olunub.

## Akrobatlarımız Bolqarıstanda 4 medal qazanıblar

**Akrobatika gimnastikası üzrə Azərbaycan millisi Bolqarıstanın Burqas şəhərində keçirilən Dünya Kubokunda 4 medal qazanıb.**




Komandamızın üzvləri Ağasif Rəhimov və Raziyə Seyidli qarışıq cütlüyü, eləcə də, Zəhra Rəşidova, Anahita Bashiri və Nəzrin Zeyniyevadan ibarət üçlük qızıl mükafat əldə ediblər.

Murad Rəfiyev və Daniel Abbasovdan ibarət cütlük, Riad Səfərov, eləcə də Abdulla Əl-Məşayxi, Seymur Cəfərov və Seyidli Rəsul ibarət kvartet isə Dünya Kubokunda 2-ci pilləni tutublar.

***L.QURBANOVA***
***XQ***

Sağlamlıq

## Almanın tumu da məlhəmdir

**Tədqiqatçılar bildirirlər ki, alma insan orqanizmi üçün çox faydalıdır. Onun tərkibində hətta xərçəng hüceyrələrini məhv edə bilən vitaminlər var. Xüsusilə də, almanın tumu möcüzəvi təsirlərə malikdir.**

Elm adamlarının fikrincə, alma tumu kimya və radiasiya terapiyaları üçün dəstək olaraq istifadə edilə bilər. Ümumiyyətlə, meyvə tumları bədəndə zərərli maddələrin təsirinin qarşısını alır. Xərçəngin müalicəsində əhəmiyyətli təsiri ilə seçilən B17 vitamini ərik və şaftalı tumunda da var. Lakin alma daha əlçatandır. Sağlam bədənə sahib olmaq üçün almanı toxumları ilə birlikdə yemək olar. Erkən diaqnoz qoyulan hallarda həkimin tövsiyə etdiyi müalicə üsullarına əlavə olaraq təzə meyvələr istehlak etməklə sağalmanı dəstəkləmək mümkündür.

Almanın tərkibindəki C vitamini immuniteti artırır. Müqaviməti gücləndirməyin və xəstəliklərdən qorunmağın ən asan yolu gün ərzində, azı, 1 ədəd alma yeməkdir. Almanın tərkibindəki pektin lifi qanda pis xolesterolu azaldır.

Həkimlər almanın bağırsaq tənbəlliyinə yaxşı



təsir etdiyini, xolesterin və karbohidratların sorulmasını tənzimlədiyini bildirirlər. Bədəndən iltihabı və toksinləri çıxarmaq üçün alma daha tez-tez qəbul edilməlidir.

***Z.HÜSEYNLİ***
***XQ***



## Abşeronda külək, bölgələrdə yağış və dolu, dağlarda isə qar...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 14-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 10-13°, gündüz 14-17° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 60-70, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 15-18°, dağlarda gecə 0-5°, gündüz 5-8° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sosial şəbəkələrdən seçmələr

## Balaca qəlbin böyük ana sevgisi

**Bu günlərdə "TikTok"da yayılan video qısa zamanda böyük əks-səda doğurub. Orada belə bir maraqlı əhvalat nəql olunur:**

"Bir gün bir uşağın əlində 2 alma olur. Anası ondan xahiş edir:

– Oğlum, olarmı, almanın birini sən yeyəsən, digərini mənə verəsən?

Uşaq bunu eşidən kimi, əvvəlcə sağ, sonra sol əlindəki almanı dişləyir. Bu vəziyyəti görən ana məyus olur, uşaqdan inciyir.

Çox keçmir ki, uşaq sol əlindəki almanı anasına uzadıb deyir:

– Anacan, bu alma daha şirindir, sən bunu ye!

Ana bu gözlənilməz hərəkətin sevincindən heyrətə gəlir. Bir qədər sakitləşəndən sonra oğlunu bərk-bərk bağrına basır..."



Hörmətli oxucu! Bu hekayətdən doğan hikmət budur ki, səbirli olun, heç vaxt heç kimi mühakimə etməyə tələsməyin. Qarşınızdakılara fikirlərini tam izah etməyə fürsət verin. Hər gördüyünüzə, eşitdiyinizə dərhal inanmayın. Axı həyat sürprizlərlə doludur!

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3937
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00